malikdir. Bir standart xörək qaşığı (15 ml) balda təxminən 46 kilokalori qida enerjisi var. Bal, çörək bişirmək üçün cəlbedici kimyəvi xüsusiyyətlərə və dadlandırıcı kimi istifadə edildikdə fərqli ləzzətlərə malikdir. Mikroorqanizmlərin çoxu balda böyüyə bilmir və qablaşdırılmış bal xarab olmur. Arxeoloji kontekstlərdə tapılan bal nümunələrinin minlərlə ildən sonra da yeməli olduğu sübuta yetirilmişdir.

Bal arıları müxtəlif parazitlərə və xəstəliklərə həssasdırlar, bu da onların koloniyalarını zəiflədə bilər və onların sağ qalmasına təhlükə yaradır. Hər bir arı növünün özünəməxsus xüsusiyyətləri və davranışları var. Məhz bu səbəbdən arı parazitləri də xüsusilə araşdırılır və öyrənilir. Bunlara varroa parazitləri, amerikan arı parazitləri, Nosema paraziti, deformasiya olunmuş qanad virusu və İsrail kəskin iflic virusu kimi viruslar daxildir. Bu parazitlər və xəstəliklər arılara qida mübadiləsi və ya çirklənmiş materiallarla təmas yolu ilə ötürülə bilər. Bal arılarının parazitlərinin törətdiyi xəstəliklərin çoxu əhəmiyyətli dərəcədə zərər verir və qlobal arıçılıq üçün real təhlükə yaradır. Arılar ekosistemdə xüsusi yer tutur. Arılar biogeosenozda əsasən bir çox örtülütoxumlu bitkiləri tozlandırma və qida kimi istifadə edilən bal istehsalı üçün xüsusi əhəmiyyətli həşərat hesab olunsa da, onların mumundan o cümlədən yaşadıqları pətəklərdən uzun illər qida vasitəsi kimi, müalicə vasitələri kimi istifadə edilmişdir. Arıkimilərin çoxlu növlərinin olmasına baxmayaraq, onlar biogeosenozda birmənalı mövqe tutmurlar. Bəzi növlərinə təbiətdə olduqca az rast gəlindiyi təqdirdə, bəzi növləri isə olduqca geniş areala yayılmışdır. Bal arıları da digər arılar kimi ağacların tozlanmasında və bal istehsalında mühüm rol oynayan canlılardır. Bal arıları cəmiyyət formasında yaşayan həşəratlardandır. Arıların parazitlərinə qarşı mübarizə aparmaq, arıların saxlanması və qidalanması üçün ən yaxşı şəraitin yaradılmasına, pətəklərdə lazımi təmizliyin saxlanmasına əsaslanır. Arılarda və ya yuvada parazitlər aşkar edilərsə, müvafiq tədbirlər görülür.

Açar sözlər: bal arıları, arı məhsulları, arı parazitləri, virus xəstəlikləri, profilaktik tədbirlər, mübarizə tədbirləri



## GİRİŞ

Arılar və ya arı ailəsinin hesabına yaşayan müxtəlif parazitar qruplar mövcuddur. Eyni zamanda, arılarla yaşayış əlaqəsi olmayan və arabir onlara zərər verən (böcəklər, siçanlar) heyvanlar da vardır. Arıların parazitləri onların həqiqi parazitlərinə və arı ailəsinin parazitlərinə bölünür. Arıların parazitləri zooloji təsnifata görə ibtidailər (amöba, qreqarinlər, nozema, nefridiofaq) kimi təsnif edilirlər; gənələr (varroa Jacobsoni, trakeal gənə); həşəratlar (donqar milçək, braula və s.). Arıların parazitləri arıların və ya sürfələrin müxtəlif orqanlarında yaşayır və çoxalır: Nozema və Gregarina – bağırsaqlarda, amöba – malpigi borularında, traxeya gənələri – nəfəs borusunda, senotiniya və fizosefallar – bədən boşluğunda, varroa Jacobson – arının dəri qatında parazitlik edir. Arının orqan və toxumalarında çoxalma parazitar xəstəliklərin artmasına səbəbiolur. Pətəklər, arı tozcuqları, bal, arı pətəyi ağacı, izolyasiya materialı, arı dəstələri və sürfələrlə qidalanırlar. Arıların parazitlərinə iri və kiçik mum güvələri, arı çörəyi, mebel, paltar güvələri, qulaqcıqlar, arı dərisini yeyənlər və s. daxildir. Bal arısının vətəni Cənubi Asiyadır. Hər bir bal arı ailəsində bir ana arı, 60-80 minə qədər işçi arı və bir neçə yüz erkək arı mövcud olur. Ana arı ailənin digər arıları ilə qarşılaşdırıldıqda nisbətən böyük ölçüdə olur. Bədəninin uzunluğu 20–25 mm, çəkisi isə təqribən 200 mq-dan çoxdur [1].

Ana arı yumurta qoymaq və pətəyin saxlanmasından məsuldur, işçi arılar isə nektar, tozcuq və s. toplayır, pətəyə və balalara qulluq edirlər. Erkək arılar isə ana arı ilə cütləşmək vəzifəsi daşıyır. Bir pətəyin arıları digər pətəyin arılarını həmin pətəyə buraxmırlar. Hər bir pətəyin yanında keşikçi arılar olur. Arılar ekoloji sistemin sağlamlığının və məhsuldarlığının qorunmasında olduqca mühim yer tutur, o cümlədən tozlandırma və bal istehsalı kimi mühüm xidmətləri göstərir. Arılar ekosistemimizdə yer almasa bir çox növ ağacların tozlanması və nəsil verməsi mümkünsüz olardı.

Bal arıları təklikdə yaşayıb çoxala bilmədiklərinə görə onlar üçün "ailə" anlayışı bioloji bir vahid kimi qəbul olunmuşdur. Arılar bildiyimiz üzrə təbiət və o cümlədən, canlı aləm üçün olduqca xeyirli həşəratlardır. Sözsüz ki, arılar bir çox təsərrüfat əhəmiyyətli xarakter daşıyırlar. Arıların biogeosenozda tutduğu mövqe olduqca yüksək səviyyədədir. Bal arılarının sistematik təsnifatı aşağıdakı kimidir:

Ümumiyyətlə, arıçılıqla məşğuliyyət uzun illərdir ölkəmizdə ön plandadır. Arılardan alınan bal ölkəmizdə həmçinin dünyanın bir çox ölkələrində sevilərək istifadə edilir. Lakin arılara ziyan verən bir sıra parazitlər vardır ki, bunlar müəyyən qədər bu təsərrüfata ziyan verir və məhsuldarlığı aşağı sala bilir [2].

Bal arıları müxtəlif parazitlərə və xəstəliklərə həssasdırlar, bu da onların koloniyalarını zəiflədə bilər və onların sağ qalmasına təhlükə yaradır. Hər bir arı növünün özünəməxsus xüsusiyyətləri və davranışları var. Məhz bu səbəbdən arı parazitləri də xüsusilə araşdırılır və öyrənilir. Bunlara varroa parazitləri, amerikan arı parazitləri, Nosema paraziti, deformasiya olunmuş qanad virusu və İsrail kəskin iflic virusu kimi viruslar daxildir. Bu parazitlər və xəstəliklər arılara qida mübadiləsi və ya çirklənmiş materiallarla təmas yolu ilə ötürülə bilər. Biz də arı parazitlərini dərindən öyrənib həm də bu parazitlərlə mübarizə yollarını araşdırmalıyıq. xəstəliklərdir ki, onların çoxu əhəmiyyətli zərər verir və qlobal arıçılıq üçün real təhlükə yaradır.

MATERİAL VƏ METODLAR

Azərbaycan ərazisi müxtəlif meyvə bağları və üzümlüklərlə zəngin olduğu üçün burada arıların yaşaması üçün əlverişli şərait mövcuddur. Azərbaycanın iqlimi dəyişkən-mülayim olduğundan yaşıllaşdırma məqsədi ilə əkilən ağaclar ilin müxtəlif fəsillərində çiçəkləyir. Bu bitkilər arasında nektarlı bitkilər üstünlük təşkil edir. Nektarlı bitkilərin əsas xarakterik cəhəti onların parlaq rəngi həşəratı cəlb etmək üçün ətirli şişəklərinin olmasıdır. Nektar ifrazı çiçək açılmazdan bir qədər əvvəl başlayır. Bu bitkilərin arıların qidalanmasında böyük praktiki əhəmiyyəti var. Bu bitkilər dünyanın müxtəlif ölkələtindən gətirilmişdir və əksər ağac və kolların çiçəkləyib qurtarmasından sonra çiçəkləməyə başlayırlar. Bu səbəbdən arılar fasiləsiz olaraq çiçəkli bitkilərlə təmin olunurlar.



Arılarda cəmiyyət halında yaşayan həşəratlarda müşahidə edilən ən sadədən ən mürəkkəbə qədər bütün davranış formaları və instinktlər mövcuddur. Bura nəsil qayğısı ehtiyat qida toplamaq, sürfənin təhlükəsiz inkişafı və s. daxildir. Tək yaşayan arılar arasında quruculuq və tədarük instinktləri daha mükəmməldir. Onlar bir neçə xanəli yuvalar düzəldir (torpaqda, ağacların oduncağında). Bu xanələrin hər birinə nektar, çiçək tozcuqları toplayır, sonra xanələrə yumurta qoyub ağzını suvayırlar. Sonra işçi dişi arılar yumurta və sürfələri bu ehtiyat qida maddələri işərisində islanmaqdan batmamaqdan qoruyur [3].

Azərbaycanda bal arılarının bir çox növlərinin yayıldığı məlumdur. Bal arılarının ən zəngin və geniş yayılmış fəsiləsi *ANTHOPHORİDAE* fəsiləsidir. Bal arılarının bütün növləri mükəmməl qurulmuş cəmiyyət halında fəaliyyət göstərmir. Ən yüksək səviyyədə qurulmuş *APİDAE* fəsiləsinin növləridir. Bal arılarının növlərinin çox olmasına baxmayaraq onların hamısının biosenozda əhəmiyyəti eyni deyil. Bu arıların bir çoxu bitkilərin tozlanması prosesində effektiv iştirak edə bilmir. Bəzi növlər parazit halda yaşayırlar. Xeyirli növlər torpaqda yuva qurub yaşayan növlər hesab olunur. Bu arılar ətrafdakı bitkilərin məhsuldarlığına xüsusi müsbət təsir göstərir.

Bu arıların fəaliyyəti sayəsində bitkilərin məhsuldarlığı 10-15 dəfə artır. Arı ailələri və ya koloniya halında yaşayan arıların hamısı yüksək cəmiyyət instinktlərə malik deyil. Sürünün əsl ailəyə çevrilməsi üçün müvafiq ixtisaslaşmaların həyata keçirilməsi lazımdır. Bu cür mükəmməl ailə ev bal arıları arasında müşahidə olunur. Birgə işləmə və ixtisaslaşma cəmiyyət üzvlərinin qarşılıqlı fəaliyyəti mövcud olduqda mümkün olur. Belə

olduqda, mükəmməl informasiya mübadiləsi mövcud olmalıdır. Bal arıları arı dili sayəsində rəqs hərəkətləri edərək nektar yığdığı yerin istiqaməti və məsafəsi barədə məlumat verir. Bal arıları isti yay ayları zamanı sərin və çiçəkli yerlərə köçürülərək saxlanır. Azərbaycan ərazisində *APODAE* fəsiləsinin 35-dən çox növü yayılmışdır. Bal arıları da bu fəsiləyə aiddir. *APİS* cinsinin Azərbaycanda bu cinsin 3 növü var.

Arıların parazit faunası tam öyrənilməmişdir. Arıların parazitlərinin törətdiyi xəstəliklər iki qrupa bölünür; infeksion və invazion xəstəliklər. İnfeksion xəstəliklərsırasına Amerika çürüdücüsü, avropa çürüdücüsü, hafnioz, salmenalyoz, spiroplazmoz, iflic virusları daxildir. İnvazion xəstəliklərə nozematoz, mikrosporidioz, qreqarinioz, nematodoz və s.daxildir. Arılar yoluxucu olmayan qida ilə əlaqədar xəstələnib kütləvi surətdə ölürlər.

## NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Azərbaycanda *APİS MELLİFERA* növünə üstünlük verilir. Bu yəqin ki, bu arı növünün daha davamlı və məhsuldar olması ilə əlaqədardır. Bu arı növündən bal və mum məhsulları alınır. Baldan həm qida məhsulu kimi, həm də müalicəvi xüsusiyyətlərinə görə istifadə olunur. Arılar nektarı çiçəklərdən toplayıb ondan bal istehsal edir. Baldan başqa, arı zəhəri də qiymətli müalicə vasitəsi hesab olunur. Əvvəllər müalicə üçün arı sancmasından istifadə olunurdu. Bu cür müalicə zamanı xəstələrin vəziyyəti pisləşirdi, çünki bədənə yeridilən zəhərin miqdarı bilinmirdi. Son illər arı zəhərinin alınmasının müxtəlif yolları tapılmışdır. Arı zəhərindən alınan dərman preparatlarıperiferik sinir sistemi, revmatik artritlər, radikulit, bronxial astma və s. müalicəsində istifadə olunur. Arıçılıq məhsullarından biri də vərəmumdur. Bərəmum və ya prapolis ağacların tumurcuqlarından və gövdəsindən toplanır. Yapışqanlı qətranı xatırladır, spesifik qoxuya və acı dada malikdir. Prapolis irinli iltihabların müalicəsində, mədə və oniki barmaq bağırsağın müalicəsində, tənəffüs yollarının xəstəliklərində istifadə olunur [4].



Arı südünün də müalicəvi xüsusiyyətləri vardır. Tərkibi zülallar, karbohidratlar və yağlarla zəngin olduğu üçün orqanizmin fizioloji funksiyaları pozulduqda istifadə olunur. Arılar çiçəklərdən çiçək tozcuğu və ya arı çörəyi adlanan məhsul istehsal edirlər ki, qan azlığı, ateroskleroz, böyrək çatmazlığı zamanı istifadə olur. Həşəratların bitkilər aləmi üçün xeyirli və zərərli növləri vardır. Xeyirli həşəratlar sırasında bal arıları və eşşək arıları həmçinin cır arılar mühüm yer tutur.

İl boyu qida tapan arılar digər bölgələrdən də uçub gəlir və faunanın zənginləşməsinə şərait yaranır. Arıların artıb çoxalması xüsusi əhəmiyyətə malik olduğundan onların parazit faunasının öyrənilməsi vacibdir. Arıların parazit faunası müxtəlifdir. Bu parazitlərin yayılma yolları, onlara qarşı kimyəvi və profilaktik mübarizə yollarının öyrənilməsində əsas məsələlərdən biridir. Parazirlər bal arılarının məhsuldarlığını aşağı salır, bəzən də onların kütləvi surətdə məhv olmasına səbəb olur. Arıların parazitləri içərisində ibtidailərdən başlayaraq həşəratlar da daxil olmaqla müxtəlif dərəcədə ziyan vuran formalar mövcuddur.

Amerika çürüdücüsü arı ailələrinin, sürfə və pup mərhələsinin yay aylarında müşahidə olunan xəstəliyidir. Xəstəliyin törədicisi *Bacillus larvae* sporşəkilli, hərəkətli qrampozitiv çubuqlardır.

Sporlar xarici mühitin fiziki-kimyəvi təsirlərinə çox davamlıdır. Balın içərisində sporlar birildən çox qalırlar. Balı qaynatdıqdan sonra sporlar 40 dəq. ərzində məhv olur. Ölmüş sürfələrdə sporlar olarsa yoluxma yenidən baş verir. Yoluxma arılara qulluq olunan inventarın təmiz saxlanmaması üzündən baş verir. Xəstəliyin törədicisi arıların müxtəlif növləri tərəfindən də yayıla bilir. Sporlar sürfənin bədəninə düşdükdən sonra orta bağırsaqda sporlar böyüməyə başlayır və hemolimfaya daxil olur. Hemolimfada sporlar sürətlə çoxalmağa başlayır və parazitin ifraz etdiyi toksinlər toxumalarda histoliz əmələ gətirir. Arıların orqanizmi müqavimət

reaksiyası göstörsədə sporlar sürətlə çoxaldığından sürfənin toxumaları dağılır və sürfə məhv olur. Xəstəliyin inkubasiya dövrü 3-7 gündür. Xəstə arı ailələrində iş qabiliyyəti aşağı düşür,onlar süstləşir və tez yorulurlar.Belə ailələrdə cavan arılar az olur və ya heç olmur. Yayın sonuna qədər belə ailələrin çox hissəsi məhv olur və tədbir görülməsə qışlamadan çıxa bilmir. Xəstəliyə qarşı tədbirlər görülərkən arıların eyni zamanda bir neçə parazitlə yoluxmasını nəzərə almaq lazımdır. Arıların daha bir infeksion paraziti avropa çürüdücüsüdür. Xəstəlik ən çox 4 günlük arılar arasında müşahidə olunur. Xəstəliyin törədicisi *Melissococcus pluton* və *Bac.alvei* növləridir. Ölmüş sürfələrdən hazırlanmış preparatların tədqiqi göstərir ki, spreptokokk pluton lanset şəkilli hüceyrələr olub bir-biri ilə cüt-cüt zəncir şəklində birləşmişlər. Hüceyrələrin ölçüləri 0,7-1,5 mkm-dir, qrampozitivdir, kapsula əmələ gətirir. Anaerob, ph 6,6 olan şəraitdə +35 C temperaturda böyüməyə başlayır. Qlükoza və fruktozanı qaz əmələ gətirmədən parçalayır. *Basilla alvei* üç qatlı hüceyrə divarına malik sporşəkilli çöpcüklərdir. Sporu iri olub hüceyrənin ortasında yerləşir.Süni səraitdə sarı rəngli koloniyalar formasında çoxalır. Avropa çürüdücüləri xarici mühit şəraitinə qarşı çox davamlı olurlar. Ölmüş sürfələrdə otaq temreraturunda 3 il həyat qabiliyyətini saxlayır vəəlverişli mühitə düşdükdə inkişaf etmıyə başlayır. İsti yay aylarında boş pətəklərdə 50-55 gün yaşayırlar. *Basilla alvei* sporları ölmüş sürfələrin tərkibində 20 il qala bilir. Xəstəlik dünyanın hər yerində yayılmışdır. İsti sevən deyillər, normal iqlim şəraitində daha yaxşı inkişaf edirlər. Arı ailələri içərisində sürfələri bəsləyən arılar tərəfindən yayılırlar. Çürüdücü arı ailələrini yazın sonunda və yayda məhv edir.İşçi arılar daha çox məhv olur [5].

Arı ailələri ilk 3 ildə bu xəstəliyə tutulmur, çünki arı südü bakteriyaları məhv etmək qabiliyyətinə malikdir. Arılar südə bal qatdıqdan sonra yoluxmaya məruz qalırlar. Parazit orta bağırsağın epiteli qatına keçərək çoxalmağa başlayır, sonra hemolimfaya daxil olur və buradan digər orqan və toxumalara yayılır. Bu zaman septisemiya əmələ gəlir. İnkubasiya dövrü 1,5-3 gün müddətində olur. Yoluxmanın ilkin dövründə sürfələr öz adi formasını dəyişib büzüşür və sarı-ağ rəng alır. Ölmüş sürfələrin kutikula qatı bir neçə günə yumşalır və dağılır. Belə sürfələr yoluxma mənbəyi yaradır. Xarici əlamətlərinə görə amerika çürüdücüsü avropa çürüdücüsündın o qədər də kəskin fərqlənmir. Ölmüş sürfələrdən turşumuş meyvə iyi gəlir. *Bas.alvei* ölmüş sürfənin daxilində inkişaf etdikcə çürümüş ət iyi verir. Zəif yoluxma zamanı 10 sürfə güclü yoluxma zamanı 50-dın artıq sürfə yoluxur [6].

Arıların kütləvi qırılmasına səbəb olan xəstəliklərdən biri iflic törədən xroniki viruslardır. Xəstəliyin törədiciləri tərkibində RNT olan viruslardır. Bu viruslar kiçik ölçülü olub xarici mühitin fiziki-kimyəvi təsirlərinə qarşı çox davamlıdırlar. Kəskin və xroniki xarakterli olan bu viruslar quruluşlarına görə bir-birindən fərqlənir. Kəskin iflic törədən viruslar sferik, xroniki iflic törədən viruslar isə oval formalı olur. Xroniki virusun yoluxması ilin bütün fəsillərində müşahidə olunur. Kəskin yoluxma isə soyuq və yağışlı havalardan isti yay zamanına keçərkən baş verir. Xəstəlik yoluxmuş arılardan sağlam arılara keçir. Həmçinin virus daşıyıcısı olan gənələrdə yoluxmaya səbəb olur. Varroa gənələri bu virusun daşıyıcılarıdır. Xarici görünüşü sağlam olan arılar virusun daşıyıcıları ola bilər. Bəzən arılar arasında hər iki virusun daşıyıları olan fərdlər olur. Xroniki iflicə səbəb olan viruslar üst çənənin və nazik bağırsağın sinir hüceyrələrinin sitoplazmasına daxil olub çoxalmağa başlayır. Yoluxmuş hüceyrələrin daxilində polimorf hissəciklər əmələ gəlir və 72 saatdan sonra arılar fəaliyyətdən düşürlər. Xroniki iflic zamanı ilkin əlamətlər 4-10 gündən sonra üzə çıxır, arılar arasında narahat vəziyyət baş verir, onlar vurnuxmağa başlayır. Xarici təsirlərə qarşı biganəlik müşahidə olunur.



Şəkil 1. Arılarda virus xəstəlikləri daşıyan varroa gənələri

Xəstəliyin xarakterik əlaməti arıların xarici tük örtüyünü itirməsi ilə müşahidə olunur. Arılar qaralmağa və parıldamağa başlayır, qarıncıq kiçilir, uçmaq qabiliyyəti itir və 12-20 gündən sonra ölürlər. Arı ailələri zəifləyir və çoxala bilmirlər. Kəskin iflic əsasən cavan arılar arasında müşahidə olunur. Qarıncığın böyüməsi baş verir, onlar uça bilmir. Arıların infeksion xəstəliklərisırasına hafnioz və ya ishal da daxildir [7].

Arıların xəstəliklərinə qarşı mübarizə tədbirləri profilaktik və kimyəvi üsulla aparılır. Çürüdücülərə qarsı profilaktik tədbirlər sırasında arılara qulluq edilən alətləri təmiz saxlamaq, vaxtında dezinfeksiya etmək daxildir. Sanitariya-veterinar qaydalara riayər edilməli arı saxlana yer 3%-li hidrogen peroksid məhlulu ilə dezinfeksiya edilməlidir. Arıların saxlandığı yeşiklər dəyişdirildikcə 3%-li qarışqa və sirkə turşusu məhlulu ilə dezinfeksiya edilməlidir. Kimyəvi yolla aparılan mübarizə zamanı arıların müalicəvi yemlərlə qidalandırılması effekt verir. Bunun üçün norsulfazol-natri preparatını streptomitsin və kanametsinlə qarışdırıb şəkər məhulul ilə arıları yemləyirlər. Sağalma müşahidə olana qədər yemləmə davam etdirilir. Arılar arasında xəstəlik olub-olmamasından asılı olmayaraq ilkin yaz aylarından başlayaraq arı saxlanan yerlər dezinfeksiya edilməlidir. Yaxın qohumların çoxalma prosesinin qarşısı mümkün qədər alınmalı zəif arı ailələrinin yaranmasına yol verməmək lazımdır. Arı saxlanan yerlər təmiz, quru, küləksiz və işıqlı olmalıdır.



Yazın ilk aylarında yeşiklərdə zədələnmiş sürfələr müşahidə olunarsa onlar xaricə çıxarılıb yandırılmalıdır. Hafniozla yoluzmuş arıları diqqətlə müayinə edərək onların kliniki əlamətlərini öyrənmək lazımdır. Xəstəliyin aradan qaldırılması üçün veterenar-sanitariya qaydalarına ciddi riayət etmək lazımdır. Yeşiklər və arıların saxlanması üçün lazım olan bütün avadanlıqlar qaynar 3%-li natrium-carbonatla dezinfeksiya olunmalı, soyuduqdan sonra su ilə təmiz yuyulmalıdır. Qeyd etmək lazımdır ki, xəstə arıların balından ancaq şirniyyat istehsalında istifadə oluna bilər.

## ƏDƏBİYYAT

1. Əliyeva R.C., Qədimov V.Ə. Bal arısının (*Apis mellifera*) bəzi xəstəlik və zərərvericiləri haqqında // AMEA Zoologiya İnstitutunun Əsərləri, Cild 35, No1, Bakı, 2017, s.40-49

2.Büchler, R., Andonov, S., Bienkowska, M., Costa, C., Hatjina, F., Kezic, N.,& Wilde, J. (2013). Apis mellifera ana arılarının yetişdirilməsi və seçilməsi üçün standart üsullar. Arıçılıq Tədqiqatları Jurnalı, 52(1), 1-30.

3.Ellis, J. D. və Spiewok, S. (2010). Bal arısının parazitləri və xəstəlikləri. Bal Arı Koloniyasının Sağlamlığında: Problemlər və Davamlı Həllər (səh. 27-49). CRC Press.

4.USDA. (2022). Bal Arısının Sağlamlığı və Koloniyanın Dağılması Bozukluğu. https://www.ars.usda.gov/ARSUserFiles/80420560/PDF/CCD Summary.pdf saytı

5.Van Engelsdorp, D. və Meixner, M. D. (2010). Avropa və ABŞ-da idarə olunan bal arısı populyasiyalarının tarixi icmalı və onlara təsir edə bilən amillər. Onurğasızlar Patologiyası Jurnalı, 103 (S1), S80-S95.

6.Brodschneider, R. və Crailsheim, K. (2010). Bal arılarında qidalanma və sağlamlıq. Apidologiya, 41(3), 278-294.

7.Dietemann, V., Nazzi, F., Martin, S. J., Anderson, D. L., Locke, B., Delaplane, K. S., ... & Rosenkranz, P. (2013). Varroa tədqiqatı üçün standart üsullar. Arıçılıq Tədqiqatları Jurnalı, 52(1), 1-54.

Резюме

ПАРАЗИТЫ МЕДОНОСНЫХ ПЧЕЛ, ОБИТАЮЩИЕ В АЗЕРБАЙДЖАНЕ, И МЕРЫ БОРЬБЫ С НИМИ

В регионе Кавказа изучено 600 видов пчел, а в Азербайджане 571 вид. Наиболее изученным видом пчел в Азербайджане являются медоносные пчелы. Как известно, обеспечение населения продуктами пчеловодства в Независимой Азербайджанской Республике включено в программу устойчивого развития. В Азербайджане широко распространены 3 вида рода медоносных пчел: *A.mellifera l, Ashcaucasia F, A.meda L.*

Мед содержит высокую концентрацию моносахаридов фруктозы и глюкозы. Мед имеет примерно такую же относительную сладость, как сахароза (столовый сахар). Одна стандартная столовая ложка (15 мл) меда содержит около 46 килокалорий пищевой энергии. Мед обладает привлекательными химическими свойствами для выпечки и различными вкусами при использовании в качестве подсластителя. Большинство микроорганизмов не могут расти в меде, а упакованный мед не портится. Доказано, что образцы меда, найденные в археологических контекстах, съедобны даже спустя тысячи лет.

Медоносные пчелы подвержены различным паразитам и болезням, которые могут ослабить их колонии и поставить под угрозу их выживание. Каждый вид пчел имеет свои уникальные характеристики и поведение. По этой причине паразиты пчел особенно исследуются и изучаются. К ним относятся такие вирусы, как клещи варроа, американские пчелиные клещи, паразиты нозематоза, вирус деформированного крыла и вирус израильского острого паралича. Эти паразиты и заболевания могут передаваться пчелам через пищевой обмен или контакт с зараженными материалами. Многие из заболеваний, вызываемых паразитами медоносных пчел, наносят значительный ущерб и представляют реальную угрозу мировому пчеловодству. Пчелы занимают особое место в экосистеме. Хотя пчелы считаются особенно важными насекомыми в биогеоценозе, в основном для опыления многих покрытосеменных растений и для производства меда, который используется в пищу, их воск, включая соты, в которых они живут, используются в качестве пищи и средства лечения в течение многих лет. Несмотря на большое количество видов пчел, они не занимают однозначного положения в биогеоценозе. Некоторые виды очень редки в природе, в то время как другие широко распространены на большой территории. Медоносные пчелы, как и другие пчелы, играют важную роль в опылении деревьев и производстве меда. Медоносные пчелы — насекомые, живущие в обществе. Борьба с паразитами пчел основана на создании наилучших условий содержания и кормления пчел, поддержании надлежащей чистоты в ульях. При обнаружении паразитов у пчел или в гнезде принимаются соответствующие меры.

Ключевые слова: медоносные пчелы, продукты пчеловодства, паразиты пчел, вирусные заболевания, профилактические меры, меры борьбы

# POSSIBILITIES OF USING HARM AND DEPRESSION PRACTICES IN EDUCATIONAL ENVIRONMENT

**Hasanova Amalia Murad**

**ORCID:** 0000-0002-2196-3215

**PhD in Biology, Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan,**

Abstract: Harmful habits are habits that negatively affect people's health and prevent them from using their abilities throughout their lives to achieve their goals. The fact that young people become on the path of using harmful habits is one of the most pressing problems in recent years. Those of the young people who refuse to adopt healthy lifestyles and adopt bad habits do not realize that these habits are destroying their lives. There is a lot of information about how the most successful individuals in the world fall victim to drug addiction and subsequently destroy themselves. In an educational setting, high school and college students on this path do not read articles related to enlightenment, but those who seek to help them should be aware of these methods. Victims of bad habits are considered serious patients, and those who work in educational settings should know the methods of breaking these habits.

Harmful habits, which are the opposite of a healthy lifestyle and form the basis of an unhealthy lifestyle, cause serious harm not only to the individual, his family, his environment and the society in which he lives. The forms and number of these habits are increasing, having a negative impact on human society. Alcohol abuse, drug abuse and smoking are dangerous and common forms of bad habits.



**Key words**: bad habits, depression, healthy lifestyle, use of advertising, motivational methods.

## GİRİŞ

Sağlamlıq insanın fiziki, psixoloji və sosial həyatda normal fəaliyyətini təmin edən vəziyyətdir. Sağlamlıq fiziki, psixoloji və ruhi vəziyyətin harmonik birləşməsidir. Sağlam həyat tərzi yaşamaq istəyən hər bir insan bir çox qaydalara əməl etməlidir. Bu qaydalar düzgün qidalanma, orqanizmi daim möhkəmləndirmə, gigiyena qaydalarına riayət etmək, əmək və istirahəti düzgün tənzimləmək, zərərli vərdişlərdən çəkinməkdən ibarətdir. Sağlam insan ətraf mühitin reaksiyalarına müvafiq cavablar verə bilir. Digər canlılardan fərqli olaraq, insan onu əhatə edən mühiti dəyişdirmək və bu mühitə uyğun yaşamaq qabiliyyətinə malikdir.

Zərərli vərdişlərin təsirindən baş verən xəstəliklər orqanizmin daxili mühitini pozur və müxtəlif xarakterli xəstəliklərin inkişaf etməsinə şərait yaradır. Bu zaman orqanizmin müqavimət qabiliyyəti azalır, xəstəliyin gedişinə psixogen amillərin təsiri güclənir. Sağlam həyat tərzinin tam əksinə olan və qeyri-sağlam həyat tərzinin əsasını təşkil edən zərərli vərdişlər nəinki insanın özünə, onun ailəsinə, ətrafına və yaşadığı cəmiyyətə ciddi ziyan vurur. Bu vərdişlərin forması və sayı getdikcə artır və insan cəmiyyətinə öz mənfi təsirlərini göstərir. Spirtli içkilərin və narkotik vasitələrin qəbulu, siqaret çəkmək zərərli vərdişlərin təhlükəli və geniş yayılmış formalarındandır. Bu vərdişlər insanın bütün fəaliyyətini özündən asılı vəziyyətə salır. Zərərli vərdişlərin təhlükəli xüsusiyyəti insanda bu vasitələrdən asılılıq yaratması, insanın bu vasitələrsiz keçinə bilməməsidir. Bu vasitələrdən xilas olmaq, normal həyata qayıtmaq çox çətindir. Daha təhlükəli asılılıq yaradan spirtli içkilər, narkotik vasitələr, insan orqanizminə öldürücü təsir göstərən toksiki və psixotrop maddələrdir. Bu vasitələri əyləncə məqsədilə qəbul edən insan sonda öz həyatını məhv etdiyinin fərqinə varmır. Narkotik vasitələrdən istifadə

nəinki insanın sağlamlığını, onun sosial və maliyyə həyatını da məhv edir. Psixotrop dərman vasitələri orqanizmdə asılılıq yaratmaqla bərabər, ayrı-ayrı orqanları zədələyir, sonra bu orqanları müalicə ilə bərpa etmək mümkün olmur (Həsənova: 2016, s. 19-22).

Uzun müddət istifadədən sonra insan özündən asılı olmadan, bu vasitələrin alüdəçisinə çevrilir. Qeyd etmək lazımdır ki, zərərli vərdişlər dövri xarakter daşıyarsa, nəticədə alkoqolizm, norkomaniya, toksikomaniya kimi xəstəliklərə çevrilir.

Siqaret alüdəçiliyi də orqanizmdə ciddi asılılıq yaradır. Siqaretin tərkibində olan nikotin və bir sıra toksiki təsirə malik maddələr orqanizmə kompleks təsir edərək müxtəlif xəstəliklər əmələ gətirir. Tütün zəif stimulyator və antidepressant maddə kimi mərkəzi sinir sisteminə təsir göstərir. Gündə 2-3 paket siqaret insan orqanizminə dərman vasitələrindən çox psixotoksiki təsir göstərir. Bu təsir gənc yaşlarda daha təhlükəli xarakter daşıyır, beyni dumanlandırır, insanın davranışında dəyişiklik yaradır. Siqaret alüdəçiliyi bir çox xəstəliklərə – ağciyər xərçəngi, mədə xorası, miokard infarktı, hipertoniya və s. xəstəliklərinə yol açır.

## MATERİAL VƏ METODLAR

Zərərli vərdişlər və onların məhvedici sonluğu barədə çoxsaylı sosial reklamlara baxmayaraq, bu vərdişlər cəmiyyətin qlobal xəstəliyinə çevrilməkdədir. Bu vərdişlərin xəstəyə çevirdiyi insanlarda şəxsiyyətin deqradasiyası baş verir. Zərərli vasitələrdən istifadə adətən, yeniyetməlik dövründən başlayır. Bu vasitələrdən istifadənin səbəbləri müxtəlifdir:

-məsuliyyət hissinin, daxili intizamın olmaması;

-insanın qarşısına qoyduğu bir məqsədin olmaması, motivasiya hissinin yox olması;

-özünəinam və gələcəyə inam hissinin itirilməsi;

-yeniyetmənin ailəsi, dostları, məktəb yoldaşları ilə müsbət əlaqələrinin olmaması;

-zərərli maddələrin problemləri “unutdurmaq” hissinə inanmaq;

Bu vasitələrin yeniyetmələrin həyatına daxil olmaması üçün ailə və məktəb birgə işləməlidir. Yaş xüsusiyyətlərini, fərdi xüsusiyyətlərini nəzərə alaraq sağlam həyat tərzinin nə qədər əhəmiyyətli olduğunu yeniyetmələrə başa salmaq lazımdır. Zərərli vasitələrdən istifadəyə başlamaq nə qədər asandırsa, bu maddələrdən asılılığı müalicə etmək çox çətindir. Bu vasitələrin istifadə edildiyi mühitdən uzaqlaşmaq, lazım gəldikdə mütəxəssisə müraciət etmək lazımdır. Proses dərinləşməmiş, alüdəçilik başlamadan bu öldürücü vasitələrin insan həyatını məhv etməsinə yol verməmək lazımdır. Bu vərdişlər, insanın sağlamlığına zərər verməklə qalmır, onların öz məqsədlərinə çatmasına və onlara verilən imkanlarından istifadə etməsinə mane olur.

İnsan həyatının qorunması ancaq tibb elminin vəzifəsi deyil, çünki müasir dünyada insana birbaşa təsir edən sosial-psixoloji səbəblər çoxdur və getdikcə artır. Hər bir insan öz sağlamlığını qorumağa, normal həyat fəaliyyətini saxlaya bilmək üçün profilaktik tələblərə riayət etməyə çalışmalıdır. Bunun üçün zərərli vərdişləri əhatə edən, insanın beyninə birbaşa təsir edən reklamların universitetlərdə də tətbiqi həyata keçirilməlidir.



## NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

İnsan cəmiyyətinin qarşısında duran ən ciddi problemlərdən biri də intihar məsələsidir. İntihar (latınca *“sui caedere”* özünü öldürmək), müstəqil və könüllü olaraq, öz həyatına son qoymaq üçün qəsdən edilən bir hərəkətdir. Əslində, ölüm barədə düşünmək belə, insan üçün çətindir.

Bioloji olaraq, sağlam insan beyni bir gün öləcəyini qəbul etmir. Hamının, həmçinin özünün də öləcəyini bilsə belə, öz ölümünə dərindən inanmır. Çox vaxt, həll olunması mümkün olan bir şeyə görə özünü öldürmək halları da rast gəlinir. İnsanlar niyə intihar edir və bu intiharların qarşısını almaq mümkündürmü? Ətrafımızda bu qədər intihar halları olduğunu görür, amma, bu mövzunu gizlətməklə, cəmiyyətin müzakirəsinə verməməklə, daha çox zərər görürük.

Hazırda həyatımızda intihar nadir hal deyil, o, uzun müddətdir ki, demoqrafik silsilə hadisələri sırasında daim öz yerini tutur. Bütün canlılarda fitri görünən özünüqoruma instinktinin əksinə olaraq, intihar bir çox tədqiqatçıların düşüncəsini çoxdan zəbt edib. İntihar elminin tibb elmi kimi meydana çıxmasından xeyli əvvəl intihar filosoflar, salnaməçilər və tarixçilər tərəfindən araşdırılırdı.

Dünyada hər il 1 milyona yaxın intihar hadisəsi baş verir və son illərdə intihara cəhd halları təxminən 10 dəfə artmışdır. İnsanların ölüm səbəbi kimi 15-35 yaş arası intiharlar yol qəzalarından sonra ikinci yerdədir. Statistika göstərir ki, intihar nəticəsində dünyasını dəyişən insanların əksəriyyəti həyatı boyu kömək üçün psixiatrik və psixoloji xidmətlərə müraciət etməmişdir.

İntihar, bütün canlıların özünü qorumaq instinktinin əksinə olaraq, uzun müddətdir ki, bir çox tədqiqatçılar tərəfindən araşdırılır. Suisidologiyanın tibb elmi olaraq ortaya çıxmasından xeyli əvvəl, intihar filosoflar, salnaməçilər və tarixçilər tərəfindən öyrənilmişdir. Antik dövrdən günümüzə qədər fəlsəfə həyatın şüurlu şəkildə sona çatması probleminə böyük əhəmiyyət vermişdir.

“İntihar cəmiyyətin sosial problemidir” mövzusu aktualdır, çünki intihar bəşəriyyətin əbədi problemlərindən biridir, insanın yer üzündə olduğu müddət ərzində bu bir fenomen olaraq mövcud olacaqdır. İntihar problemi, tədqiqatçılara görə, tamamilə antropoloji bir fenomendir. İntihar kompleks bir problemdir və bu problemin öyrənilməsi fəlsəfə sahəsində başlamışdır. Alber Kamyu inanırdı ki, “həqiqətən ciddi bir fəlsəfi problem vardır, intihar problemi. Həyatın yaşamağa dəyərli olub-olmamasına qərar vermək fəlsəfənin əsas sualına cavab verməkdir. Qalan hər şey ikinci dərəcəli məsələdir”.



İntiharlar uzun müddətdir ki, demoqrafik silsilənin hadisələri arasında öz yerini tutmuşdur, lakin insan davranışının optimal formalarını tapmaq problemi, intihar problemi artıq insanların düşüncəsidir. Sosioloji araşdırmalara görə iqlim, mövsüm, yaşayış yeri, yaş, cins, din, iqtisadi həyat səviyyəsi, siyasi vəziyyət kimi faktorların intihar hadisələrinin ümumi sayına təsir etdiyi müəyyən olunmuşdur.

2003-cü il 10 sentyabr tarixindən dünyanın hər yerində intiharlarının qarşısının alınması fəaliyyətinin təbliği məqsədi ilə Ümumdünya İntiharların qarşısının alınması günü qeyd olunur. Bu gün Beynəlxalq İntiharların qarşısının alınması assosiasiyasının təşəbbüsü, Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi və Birləşmiş Millətlər Təşkilatının himayəsi altında qeyd olunur. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi statistikaya görə, üçüncü minillikdə bütün müharibələr və məqsədli qətllərə nisbətən daha çox ölümlər intihardan olmuşdur. Covid 19 pandemiyasını da nəzərə almaqla, artıq intiharlar barədə ciddi düşünmək və lazımi tədbirlər görmək üçün dünya səviyyəsində tədqiqatlar aparılır.

Intiharlar da hər zaman olub. Dünyanın çox ölkələrində kritik vəziyyətlərdən çıxmaq üçün mərkəzlər vardır. İntiharlar ən çox gənclər və yeniyetmələr arasında rast gəlinir, buna görə məktəblərdə və universitetlərdə gənclər təşkilatlarında bu məsələlərlə məşğul olan bir bölmə olması məqsədəuyğundur. Həyatın çətinliklərini gizlətməklə insanlıq heç nə qazanmır, əslində mövcud olan problemləri tam açıqlığı ilə araşdırıb, sonra çıxış yolları göstərilməlidir. Ailədə valideynlər öz övladları ilə dostluq və güvənli münasibət qurmaqla, uşaqlarının problemlərini bölüşə bilərlər. Çox vaxt ailədə, cəmiyyətdə elə qarışıq və ağır mühit olur ki, dayanmaq və

mübarizə arapmaq üçün insanın fiziki və mənəvi gücü çatmır. Bu dünyanın bütün ölkələrində belədir, insan və həyat varsa, demək rəqabət və mübarizə də var. Bu məsələlər sosial şəbəkələrdə ciddi təhlil olunmalı, zərərli vərdişlər və intihar hadisələrinin sosial-psixoloji və antropoloji əsasları müzakirə olunmalıdır.

İnkişaf etmiş ölkələrdə yeniyetmələrin intihar davranışı barədə araşdırmalar ciddi bir problem halına gəlmişdir. ABŞ-da, bir çox Avropa ölkələrində yeniyetmələrin intiharı bu yaşda baş verən ölüm səbəbləri arasında ilk beşliklərdən birini tutur. Tədqiqatların nəticələrinə əsasən, gənclər arasında mövcud ölüm hallarının intihar səbəbindən ikinci yerdə olması dəhşətdir. Bir qayda olaraq, intihara cəhd 13 yaşdan başlayır. 12-13 yaşdan əvvəl intiharlar nadir rast gəlinir. 14-15 yaşdan etibarən intihar fəaliyyəti kəskin şəkildə artır və maksimum 16-20 yaşa çatır.

Yeniyetmələrdə intihar davranışı əsasən keçid dövrü problemidir, bu neyro-hormonal proseslərdən, bədənin reaksiya vəziyyətlərindən irəli gəlir. Buna görə bir çox intiharlar və intihara cəhdlər "yeniyetməlik dövrü və gənclik böhranları" kimi tədqiq olunur. Bu yaşda yeniyetmələr qarşılaşdıqları problemləri həll etmək üçün təcrübəli olmur, ailələrindən və yaxınlarından kömək istəyə bilmir. Bunun da cox ciddi səbəbləri vardır. Ailələr övladlarına dost olmaq məsələsini özləri də bilmir, bunun üçün kifayət qədər məlumatları yoxdur. Burda təhsilin də rolu böyükdür. Əgər valideynlər təhsilli olarsa, öz övladlarına fərdi yanaşmaq barədə məlumatlı olurlar. Bəzən elə hadisələrlə qarşılaşırıq ki, konkret intihara valideynin övladı ilə rəftarının səbəb olduğu şübhəsiz olur (Həsənova, Rüstəmli: 2021, s. 31-121).

Araşdırmalara görə, intihar etməyi planlaşdıran insanların 75%-i intihar niyyətlərini bu və ya digər şəkildə büruzə verir. Nadir hallarda intihar etmək firki ani yaranır. Bu insanların demək olar ki, əksəriyyəti psixoloqlara, həkimlərə müraciət etmək istəyirlər. Bəzən onların bu fikirlərinə etinasız yanaşılır, belə insanları dinləyən, onların dərdinə şərik olan olsa, yəqin intihar etməzlər. Çünki, səmimi söhbət əsnasında planlaşdırılan intihar əlamətləri ortaya çıxır və ya depressiya əlamətləri özünü göstərir. Belə insanlar bir tərəfdən ümidsizlik yaşayırlar, digər tərəfdən qurtuluşa ümid edirlər. İntihar etmək istəyən birinə sadə dəstək sözləri ilə də kömək etmək mümkündür. Belə edilməzsə, intiharın qarşısı alınmayacaqdır. Buna görə, planlaşdırılan intihar haqqında əlamətləri bilmək çox vacibdir.



Şəkil 1. İntiharın profilaktikasını ifadə edən reklamlarİnsanın taleyi, həyatın gedişindən qaynaqlanan hadisələrin dəyişkənliyi ilə əlaqədardır. Hər gün, hər saniyədə bu və ya digər istiqamətdə seçim edirik, beləliklə həyatımızın yollarını bu və ya digər istiqamətə aparırıq. Qeyd emək lazımdır ki, həyatımızda fatalizm elementləri də vardır. Biz harada, hansı ailədə və ölkədə doğulduğumuzu, hansı sosial səviyyədə, hansı sağlamlıqda doğulduğumuzu əvvəlcədən təyin edə bilmirik. Bioloji amillərin insan həyatındakı rolunun qiymətləndirilməsi də çox vacibdir. İntihara meyllilikdə irsiyyətin rolu haqqında da məlumatlar vardır. Uşaqlarda və yeniyetmələrdə intihar davranışı davranış formalarından biridir və yetkinlərin intihar davranışından müəyyən elementlərlə fərqlənir.

Yeniyetməlik dövründə intihar hadisələrinin 90%-ində "kömək üçün çağırış" müşahidə olunur, yeniyetmələrin yalnız 10% həqiqi intihar etmək istəyir. Yeniyetmələrdə intihar davranışının ən tipik səbəbləri:

-başa düşülməmək hissi, inciklik, tənhalıq, yadlaşma hissi;

-valideyn sevgisinə, ailədə başqa uşaqlara qarşı sevgiyə qısqanclıq hissi;

-yaxınların ölümü, boşanma, valideynlərin evdə bir-biri ilə pis davranışı;

-günahkarlıq, utanc, peşmanlıq, qürur inciklyi, lağ etmək, alçaltmaq;

-cəza qorxusu, üzr istəməmək hissi;

-sevgi uğursuzluqları, həddi büluğa çatmaq dövründə hormonal cinsi dəyişkənliklər;

-qisas, qəzəb, etiraz, təhdid, xəbərdarlıq hissi;

-diqqət çəkmək, özünə rəğbət oyatmaq, xoşagəlməz nəticələrdən və çətin vəziyyətdən qaçmaq arzusu;

-yoldaşlarına, kitab və ya film qəhrəmanlarına simpatiyası və ya təqlidi.

Müasir cəmiyyətin informasiyalaşdırılması ilə əlaqədar olaraq intihar davranışı dəyişmişdir. İnternetin inkişafı ilə virtual ünsiyyətə üstünlük verən insanların sayının artması, real həyatda insan münasibətlərinin pozulmasına və depressiyanın yaranmasına gətirib çıxarır. Böhran zamanlarında bir gənc həmsöhbət tapmaq və problemlərini müzakirə etmək istəyini təmin edə bilmir və intiharı təbliğ edən saytların qurbanı ola bilərlər. Qeyd etmək lazımdır ki, "İntihar klubları" bir çox qədim zamanlardan bəri mövcuddur: Qədim Misirdə Kleopatra dövründə, Almaniyada 1819, Vyanada 1824, ABŞ-da 20-ci əsrin əvvəlləri və s. Amma virtual intihar tərəfdarlarının icmaları ənənəvi sələflərindən sayının çoxluğu, qeyri-kafiliyi ilə fərqlənir. Bu saytlarda coğrafi mövqe və istənilən yaşda olan insanlar üçün pulsuz girişin olması da cəlb etmə metodudur. Virtual intihar problemi bütün dünyada mövcuddur, internetin inkişafı ilə bərabər virtual intihar mədəniyyəti də "yaranıb və formalaşıb". Bu saytların fəaliyyətini öyrənərkən ziyarətçilərin əksəriyyətinin gənclər olduğu müşahidə olunur. Formal olaraq bu qruplar qapalıdır, lakin məlumat əldə etmək üçün sadəcə qrupa abunə olmaq və ya haqqında yazmaq lazımdır. İntihar düşüncələrinin başlanğıcından onları həyata keçirmək cəhdinə qədər olan dövr presuisidial dövr adlanır; fərd depressiv affekt vəziyyətindədir, onun intihar haqqında fikirləri güclənir, yaşayış şəraitindən narazılığı artır. Virtual intihar klublarının iştirakçılarının sosial şəbəkələrdə şəxsi səhifələrində yerləşdirdikləri materiallar bunu göstərir, onlar depressiyaya düşdüklərini və təklikdən əziyyət çəkdiklərini yazırlar. Belə bir əhval-ruhiyyə intihar təklifi üçün münbit zəmindir və intihardan əvvəlki dövr üçün xarakterik olan depressiv əhval-ruhiyyənin inkişafına ciddi təkan verir.



Depressiyaya düşmüş gəncin qohumları və ya ailələri bu məlumatları onun sosial şəbəkədəki şəxsi səhifəsində oxuya bilərlər. Müasir dövrdə könüllü təşkilatlar sosial şəbəkələr yaradır və intihardan əvvəlki mərhələdə intiharın qarşısını mümkün qədər alır.Vəziyyətin ən dəhşətlisi budur ki, müraciət virtual intihar klublarının üzvlərinə ünvanlanırsa, o zaman insan fikrindən daşınmır: onun seçimi təsdiqlənir və onlar tez və etibarlı şəkildə intihar üsulu təklif etməyə başlayırlar (Hawton: 1992, s.39).

İntiharın üsulları və yerləri haqqında məlumatı internetdə tapmaq asandır. Bütün bunlar gəncə cəmiyyətin intihara qadağa qoymadığını, özünün lazımsız olduğunu aydınlaşdırır. Virtual intihar klublarının məzmunu mümkün qədər çox üzv cəlb etmək məqsədi daşıyır. Bir insanın bu cür məlumatlara açıq çıxışının təhlükəsi Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsi ilə vurğulanır. Virtual aləmdə intiharın faydalarından bəhs edən şəxslər, şəxsi və ictimai həyatın

sərhədlərini, insanın müdafiəsizliyini artırır. Müasir kommunikasiya vasitələrinin köməyi ilə manipulyasiya prosesini asanlaşdıran kibermobbinq ciddi tətbiq olunur.

İnsan çox güclüdür, o hər şeyə qalib gəlir. Amma, insanın öz gücünə inanması çox vacibdir. Bunun üçün psixologiya və psixoanalizdə bir çox metodlar vardır. Fransız psixoterapevti Emil Kuye xəstələrin (bu sağlamlara da aiddir) sağalmasında aşılama prosesinin effektini hələ 1921 ildə sübut etmişdi. Müasir psixologiyada aşılama prosesinin nələrə qadir olduğunu bilməyən çox azdır. İnsan bu prosesin köməyi ilə istədiyi nailiyyəti əldə edə bilər. Bunun üçün güclü olmağa çalışmaq lazımdır. Güclü olmaq isə bacarıqdır, hər bir keyfiyyət kimi bunu da qazanmaq lazımdır. İntihar etmək çıxış yolu deyil, insan öz potensial gücündən istifadə etməlidir.

Sosial şəbəkələrdə reklamların gücünün həyatımızı bu qədər dəyişməsi artıq məlumdur. Reklamların əksəriyyəti narkomaniyanın gətirdiyi ölümün yaxınlıqda bizi gözlədiyini dəfələrlə xatırladır. Amma bu tipli reklamlar maarifləndirmə xarakterli olmalı, hamının anlayacağı dildə aparılmalıdır.

Zərərli vərdişlərlə mübarizə aparmaq üçün sağlam həyat tərzinin, idmanın və bədən tərbiyəsinin profilaktikasını daha geniş tətbiq etmək lazımdır. Hər bir insanın sağlamlığını möhkəmləndirmək və qorumaq, qocalığa qədər əmək qabiliyyətini, fiziki fəaliyyətini və canlılığını qorumaq üçün böyük imkanlar vardır. "Hərəkət həyatdır!" Bu, hər bir şagirdin və tələbənin devizi olmalıdır.

Təhsil müəssisəsinin pedaqoji fəaliyyəti zərərli vərdişlərin qarşısının alınması üçün müxtəlif motivasiya metodlarından istifadə etməklə kütləvi, qrup və fərdi psixoloji-pedaqoji (oyun üsulları, təlim işi, həyatın teatrlaşdırılması vəziyyətləri və s.) məzmununda işlərə yönəldilməlidir. Profilaktik oriyentasiyanın müəyyən edilməsi universitet şəraitində informasiya texnologiyalarından istifadə etməklə də aparılmalıdır.



Beləliklə, proqram fəaliyyətləri sağlam həyat tərzinin faydalı vərdişləri, məsuliyyət hissi, həyatın dəyərinin dərk edilməsi istiqamətində həyata keçirilməlidir. Bunun üçün gənclərə ünsiyyət üçün şərait yaratmaq, şəxsi keyfiyyətlərin inkişafına kömək edən yüksək effektiv konstruktiv davranışın formalaşması vacibdir.

**ƏDƏBİYYAT.**

1.Həsənova A.M., (2016) Tibbi müalicə metodları və sisemləti, ADPU nəşriyyatı, Bakı – 19-22 s.

2.Həsənova A.M, Rüstəmli R.A., (2021) Müasir təbiətşünasliğin sosial-sinergetik konsepsiyası, ADPU nəşriyyatı, Bakı – 31-121 s.

3.Hawton K. (1992). Suicide and attempted suicide //In: Pankel E, ed. Handbook of Affective Disorders, 2nd ed. New York, NY: Guilford. – 39 p.

TƏHSİL MÜHİTİNDƏ ZƏRƏRLİ VƏRDİŞLƏRDƏN VƏ DEPRESSİYADAN QORUNMAQ YOLLARININ İSTİFADƏSİ İMKANLARI

Xülasə: Zərərli vərdişlər insanların sağlamlığına mənfi təsir göstərən, öz məqsədlərinə çatmaq üçün bütün həyatı boyu öz imkanlarından istifadə etmək yolunda əngəl törədən vərdişlər hesab olunur. Gənclərin zərərli vərdişlərdən istifadə yollarına düşməsi son illərin ən aktual problemlərindən biridir.. Gənclər arasında sağlam həyat tərzindən imtina edib zərərli vərdişlərə qurşananlar bu vərdişlərin onların həyatını məhv etdiyinin fərqinə varmırlar. Dünya səviyyəsində ən uğurlu şəxsiyyətlərin narkomaniya qurbanı olub, sonradan məhv olması ilə bağlı məlumatlar çoxdur. Təhsil mühitində bu yola düşmüş şagird və tələbələr maarifləndirmə ilə əlaqəli yazıları oxumur, amma belələrinə kömək etmək məqsədi olanlar bu metodlar barədə

məlumatlı olmalıdır. Zərərli vərdişlərin qurbanları ciddi xəstələr hesab olunur və təhsil mühitində işləyənlər bu vərdişlərdən xilas olmaq metodlarını bilməlidir.

Sağlam həyat tərzinin tam əksinə olan və qeyri-sağlam həyat tərzinin əsasını təşkil edən zərərli vərdişlər nəinki insanın özünə, onun ailəsinə, ətrafına və yaşadığı cəmiyyətə ciddi ziyan vurur. Bu vərdişlərin forması və sayı getdikcə artır və insan cəmiyyətinə öz mənfi təsirlərini göstərir. Spirtli içkilərin və narkotik vasitələrin qəbulu, siqaret çəkmək zərərli vərdişlərin təhlükəli və geniş yayılmış formalarındandır.

Açar sözlər: zərərli vərdişlər, depressiya, sağlam həyat tərzi, reklamlardan istifadə, motivasiya metodları

ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ СПОСОБОВ ПРОФИЛАКТИКИ ВРЕДНЫХ ПРИВЫЧЕК И ДЕПРЕССИИ В ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДЕ

Аннотация: Вредными считаются привычки, которые негативно влияют на здоровье людей и мешают им использовать свои способности на протяжении всей жизни для достижения целей. Тот факт, что молодёжь становится на путь использования вредных привычек, является одной из самых острых проблем последних лет. Те из молодых людей, кто отказывается от здорового образа жизни и перенимает вредные привычки, не осознают, что эти привычки разрушают их жизнь. Существует множество информации о том, как самые успешные личности в мире становятся жертвами наркозависимости и впоследствии разрушают себя. В образовательной среде школьники и студенты, вставшие на этот путь, не читают статей, связанных с просветлением, но те, кто стремится им помочь, должны знать эти методы. Жертвы вредных привычек считаются серьёзными пациентами, и те, кто работает в образовательной среде, должны знать методы избавления от этих привычек.

Вредные привычки, являющиеся полной противоположностью здоровому образу жизни и составляющие основу нездорового образа жизни, наносят серьёзный вред не только самому человеку, его семье, его окружению и обществу, в котором он живёт. Формы и количество этих привычек растут, оказывая негативное влияние на человеческое общество. Злоупотребление алкоголем, наркотиками и курение являются опасными и распространёнными формами вредных привычек.

**Ключевые слова:** вредные привычки, депрессия, здоровый образ жизни, использование рекламы, мотивационные методы.

# SƏMƏD VURĞUNUN "KOMSOMOL" POEMASINDA İNQİLABİ ROMANTİZMİN BƏDİİ TƏZAHÜRLƏRİ

***Həsənova Leyla Ziyafət qızı***

***Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya fakültəsi, müəllim***

***Orcid İd: 0009-0006-9057-9205***

Xülasə: Səməd Vurğun XX əsr Azərbaycan poeziyasının öncül nümayəndələrindən biridir. Onun yaradıcılığı həm romantik təxəyyül, həm də sosialist ideologiyasının bədii ifadəsi baxımından zəngin məzmun daşıyır. Xüsusilə "Komsomol" poeması sovet gəncliyinin obrazı fonunda inqilabi romantizmin əsas xüsusiyyətlərini əks etdirir. Bu əsər həm tarixi, həm də estetik cəhətdən tədqiqata dəyərdir.

***Açar sözlər:*** ədəbiyyat, Səməd Vurğun, poeziya, inqilabi romantika

Summary: Samad Vurgun is one of the leading representatives of Azerbaijani poetry of the 20th century. His work is rich in content, both in terms of romantic imagination and artistic expression of socialist ideology. In particular, the poem "Komsomol" reflects the main features of revolutionary romanticism against the background of the image of Soviet youth. This work is worth studying both historically and aesthetically.

***Keywords:*** literature, Samad Vurgun, poetry, revolutionary romance



Səməd Vurğun XX əsr Azərbaycan poeziyasının ən görkəmli simalarından biridir. O, milli poeziyada romantik pafosu, ictimai idealları və bədii təxəyyülü ilə seçilən sənətkarlardandır. Şairin yaradıcılığı həm klassik ənənələrə bağlılıq, həm də dövrün ictimai-siyasi tələblərinə cavab vermək baxımından özünəməxsus yer tutur. Onun poeziyasında vətən sevgisi, xalq məhəbbəti, əmək idealı və qəhrəmanlıq kimi mövzular geniş yer tutur. Səməd Vurğun, xüsusilə sovet dövründə yetişən gəncliyin mənəvi formalaşmasında mühüm rol oynamışdır. Bu baxımdan "Komsomol" poeması onun ideya-estetik axtarışlarının bariz nümunəsi kimi diqqəti cəlb edir.

"Komsomol" poemasında müəllifin əsas məqsədi sovet gəncliyinin inqilabi ruhunu, vətənə bağlılığını və əməksevərliyini tərənnüm etməkdir. Bu məqsədə uyğun olaraq Səməd Vurğun konkret bir obrazdan daha çox, ümumiləşdirilmiş bir gənclik portreti yaradır. Poemanın qəhrəmanları – Komsomol üzvləri – keçmişin zülmətinə qarşı gələcəyin işığını daşıyan bir ideal obraz kimi təqdim olunur:

Ayazlı, şaxtalı o qış axşamı,

O, ay dediyimiz göylərin şamı…

O qarlı düzlərə bazıb yanırdı,

Yolçular getdikcə yol uzanırdı [1, 7]

Bu misralarda qəhrəmanların yalnız fiziki deyil, mənəvi yetkinliyi də vurğulanır. Gənclər sadəcə qurucu qüvvə deyil, həm də ideoloji daşıyıcıdır.

Romantik ədəbiyyatda qəhrəman adətən idealizə olunur, real dünyadan çox, arzuların və ideallarin dünyasında yaşayır. Vurğunun "Komsomol"unda da bu xüsusiyyətlər aydın şəkildə

müşahidə olunur. Gənc qəhrəman öz şəxsi maraqlarından çox, ictimai məqsədlər uğrunda mübarizə aparır, bu isə onu tipik romantik obrazlara yaxınlaşdırır.

… Bəşər bu yolları keçəydi gərək,

Böyük addımlarla gəlir gələcək… [1, 23]

Əsərdə gəncin fiziki zəhməti ilə yanaşı, mənəvi gücü də qabardılır. O, təbiəti dəyişir, boşluğa həyat gətirir – bu isə romantizmin klassik motivlərindən biridir.

Səməd Vurğunun dil üslubu poetik baxımdan zəngin və emosionaldır. Metaforalar, simvolika, ritorik suallar əsərdə geniş istifadə olunmuşdur. Gənclik obrazı təkcə yaşla deyil, daxili enerjisi və vətən sevgisi ilə müəyyən edilir. Bu isə qəhrəmanın fövqəlbəşər bir gücə malik olduğunu göstərir və romantik poeziyanın klassik ənənələrini yaşadır.

Eyni zamanda, poemada təsvir olunan sevgi xətti də öz romantik pafosuyla diqqəti çəkir. Cəlil və Humayın sevgisi saf məhəbbət, əsl sevgi rəmzi kimi M.Füzulinin Leyli və Məcnunundan heç də geri qalmır. Bu isə xalq şairinin öz keçmişinə, klassiklərimizə, xüsusilə də Füzuliyə olan bağlılığının bariz sübutudur.

“Komsomol” poeması, mahiyyət etibarilə, sosialist realizmi çərçivəsində yazılsa da, onun daxilindəki poetik motivlər romantizm elementləri ilə zəngindir. Burada reallıq və ideya harmonik şəkildə qovuşur. Qəhrəman həm konkret tarixi şəraitdə fəaliyyət göstərir, həm də ideal bir gələcəyin daşıyıcısıdır.

Səməd Vurğunun “Komsomol” poeması təkcə sovet dövrünün ideoloji çağırışlarına cavab vermir, eyni zamanda romantik poeziyanın dərin məzmunlu bir nümunəsidir. Burada şair həm inqilabi ideyaları tərənnüm edir, həm də bədii-estetik dəyərlərə sadiq qalır. Əsər bu baxımdan həm dövrün ruhunu ifadə edir, həm də poetik fikrin yüksək nümunəsi kimi yadda qalır.



Ədəbiyyat siyahısı

1. Vurğun, Səməd. Seçilmiş əsərləri. III cild, Bakı: Yazıçı, 1983.
2. Sadiq İ. Səməd Vurğunun özü və sözü, 2025
3. Qədirova M. Səməd vurğunun yaradıcılığında ronantika, 2017

# FEİLİN ZAMANLARININ ÖYRƏDİLMƏSİ YOLLARI

**Dos. Dr. Məmmədova Könül Ələddin qızı**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**ADPU-nun Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrası**

**https://orcid.org/0000-0001-8664-4912**

**AÇAR SÖZLƏR:** zaman anlayışı, keçmiş zaman, indiki zaman və gələcək zaman

Zaman anlayışı uşaqlarda məktəbəqədər dövrdə yaranmış olsa da, tam formalaşmır və bəzən biz onların nitqində *srağagün, dünən, bu gün, sabah, birigün* sözlərinin düzgün işlədilməməsinə şahid oluruq. Müasir Azərbaycan dilində feilin zamanlarının sayı haqqında müxtəlif fikirlər olsa da, dilimizdə feilin üç zamanı məqbul sayılır: keçmiş zaman, indiki zaman və gələcək zaman.Sözlər düzgün yerində işlədilsə belə artıq III-IV siniflərdə qrammatik cəhətdən natamamlıq, səhvlik yaranır, yəni şəxs sonluqları, zaman şəkilçiləri düzgün işlədilmir. Məsələn: *Mən sabah getmişdim (gedəcəm), Qardaşım bunu mənə sabah almışdı (dünən, srağagün)* və s. Ona görə də II sinifdə zaman anlayışını məhz onlara tanış olan vaxt anlayışı ilə - *nə edir?* (indi, bu gün), *nə etdi?* (dünən, srağagün, keçən ay, keçən il), *nə edəcək?* (sabah, birigün, gələn ay, gələn il) başa salmaq lazımdır .

Mövzunun qrammatik izahı isə belə kimi verilir: Kəsir, asır sözləri hərəkətin indi davam etdiyini bildirir. Belə sözlər nə edir? Sualına cavab olur. Kəsdi, asdı sözləri isə hərəkətin bitdiyini bildirir. Belə sözlər nə etdi? sualına cavab verir. Dərəcək, yağacaq sözləri hərəkətin gələcəkdə görüləcəyini bildirir. Belə sözlər nə edəcək? nə olacaq? suallarından birinə cavab verir.



Şagirdlərin nitqində zaman anlayışları ilə bağlı səhvləri düzəltmək məqsədilə aşağıdakı tapşırıq nümunələrindən istifadə etmək olar:

Dilimizdə keçmiş zamanı iki cür ifadə etmək olar. İşin keçmişdəki icrası haqqında ya bilavasitə, ya da bilvasitə xəbər vermək olar, yəni II və III şəxs tərəfindən işin keçmişdəki icrası haqqında xəbər verən ya özünün bilavasitə şahidliyini, ya da həmin işin icrasını başqasından eşitdiyini və işin onsuz icra olunduğunu bildirir. Buna əsasən azərbaycan dilində keçmiş zaman *şühudi və nəqli keçmiş zaman* olmaqla iki qrupa ayrılır. Keçmiş zamanın bu formaları bir-birindən həm mənaca, həm də şəkilcə fərqlənir. Yəni ki, bir zamanın ayrı-ayrı mənalar ifadə etməsi ayrı-ayrı əlamətlərlə təzahür etdirilir.

Şühudi keçmiş zaman dedikdə keçmişdə icra olunmuş bir iş, hərəkət barədə indi onun barəsində şahidlik yolu ilə xəbər verilən zaman arasındakı müddət nəzərdə tutulur. Şühudi keçmiş zaman haqqında xəbər verilən işin icrasında xəbər verənin şahidliyi və bilavasitə müşahidəçinin olması ilə səciyyələnir. Məsələn: *Qapı döyüldü* cümləsində qapının döyüldüyünü xəbər verən şəxs bilavasitə döyülmək işinin icrasını ya öz qulağı ilə eşitdiyini, ya da gözü ilə gördüyünü bildirmiş olur, -dı (-di, -du, -dü) şəkilçisi şühudi keçmiş zamanın şəkli əlamətidir: tapdı, bitirdi, getdi, ağladı, çatdırmadı, istədi və s.

Nəqli keçmiş zaman əvvəlcə (keçmişdə) icra olunmuş bir iş haqqında indi (xəbər verilən zaman) şahidlik vermədən, işin icrasında bilavasitə müşahidəçi olmadan, yalnız işin icrasının nəticəsini bildirən zaman arasındakı vaxtdır. Nəqli keçmiş zamanda icra olunan iş nəql olunur.

Bu zaman formasının bəzi xarakterik xüsusiyyətləri var: *-mış$^{4}$, -ıb$^{4}$* şəkilçiləri ilə yaranır: *baxmışam, görübsən* və s.

Gələcək zaman iş, hal və hərəkətin danışılan vaxtdan sonra icra olunacağını bildirir. Bu zaman hələ icra olunmamış iş, hal və hərəkəti ifadə edir. Keçmiş və indiki zamanla müqayisə olunarsa, gələcək zaman dilimizə daha az istifadə olunur.

İşin icrasının qəti və qeyri-qətiliyinə əsasən gələcək zaman iki qrupa ayrılır: qəti gələcək zaman, qeyri-qəti gələcək zaman. İşin gələcəkdə icra olunması və ya olunmaması haqqında indi qətiyyətlə xəbər vermək qəti gələcək zaman formasına aiddir. Bu zaman formasının şəkli əlaməti *-acaq (-əcək)* şəkilçisidir.

Qeyri-qəti gələcək zamanda isə işin gələcəkdə icrası haqqında indi qeyri-qəti formada xəbər verilir. Bu zamanın şəkli əlaməti isə *-ar (-ər)* şəkilçisidir.

# THE EFFECTIVENESS OF AZERBAIJANI LANGUAGE LESSONS: METHODOLOGICAL APPROACHES IN PRIMARY GRADES

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNİN EFFEKTİVLİYİ: İBTİDAİ SİNİFLƏRDƏ METODİK YANAŞMALAR

**DOSENT, PEDAQOGİKA ÜZRƏ FƏLSƏFƏ DOKTORU PƏRİ PAŞAYEVA**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

## ÖZET

Bu makalede ilkokul düzeyinde Azerbaycan dili derslerinin etkili bir şekilde düzenlenmesi için uygulanan modern metodik yaklaşımların teorik temelleri ve pratik imkanları incelenmektedir. Dil öğreniminin sadece gramer kurallarının ezberlenmesiyle sınırlı olmadığı, aynı zamanda iletişim becerilerinin, yazma ve okuma alışkanlıklarının, eleştirel düşünme ve yaratıcı ifade yeteneklerinin gelişimiyle bağlı olduğu vurgulanmaktadır. Makalede iletişimsel, oyun temelli, bireysel ve bütüncül öğretim modelleri, bu modellerin ders sürecine uygulanma mekanizmaları ve öğrenci başarılarına etkisi geniş bir şekilde ele alınmaktadır. Ayrıca öğretmenlerin metodik hazırlık düzeyinin ve öğretim materyallerinin çağdaş gereksinimlere uygun hale getirilmesinin önemi vurgulanmaktadır. Sonuç olarak makalede, doğru seçilmiş metodik yaklaşımların ilkokul öğrencilerinin dil öğrenme motivasyonunu ve konuşma becerilerini artırmakla kalmayıp, ana dile sevgi ve sorumluluk duygusunun gelişimine de katkı sağladığı gösterilmektedir.

Anahtar kelimeler: Azerbaycan dili, ilkokul, metodik yaklaşım, iletişimsel öğretim, oyun yöntemi, bireysel yaklaşım, öğretimin etkinliği, öğretim stratejileri.



## ABSTRACT

This article analyzes the theoretical foundations and practical applications of modern methodological approaches used to ensure the effective organization of Azerbaijani language lessons at the primary education level. It emphasizes that language learning is not limited to memorizing grammatical rules but also involves the development of communication skills, writing and reading habits, critical thinking, and creative expression. The article thoroughly examines communicative, game-based, individual, and integrative teaching models, their implementation mechanisms in the teaching process, and their impact on student achievement. Furthermore, the importance of teachers' methodological preparedness and the adaptation of teaching materials to modern educational standards is highlighted. The study concludes that well-chosen methodological approaches not only enhance primary students' motivation and language skills but also contribute to fostering a sense of love and responsibility toward the mother tongue.

**Keywords**: Azerbaijani language, primary grade, methodological approach, communicative teaching, game method, individual approach, teaching effectiveness, instructional strategies.

Məqalədə ibtidai təhsil səviyyəsində Azərbaycan dili dərslərinin effektiv təşkil olunması üçün tətbiq olunan müasir metodik yanaşmaların nəzəri əsasları və praktik imkanları təhlil edilir. Dil öyrənmənin yalnız qrammatik qaydaların əzbərlənməsi deyil, eyni zamanda ünsiyyət bacarığının, yazı və oxu vərdişlərinin, tənqidi təfəkkür və yaradıcı ifadə imkanlarının inkişafı ilə bağlı olduğu qeyd olunur. Məqalədə kommunikativ, oyun əsaslı, fərdi və inteqrativ tədris modelləri, onların tədris prosesində tətbiq mexanizmləri və şagird nailiyyətlərinə təsiri geniş

şəkildə araşdırılır. Həmçinin, müəllimlərin metodik hazırlığının, təlim materiallarının müasir tələblərə uyğunlaşdırılmasının əhəmiyyəti vurğulanır. Nəticə etibarilə, məqalədə göstərilir ki, düzgün seçilmiş metodik yanaşmalar ibtidai sinif şagirdlərinin dil öyrənməyə olan motivasiyasını və nitq bacarıqlarını artırmaqla yanaşı, ana dilinə sevgi və məsuliyyət hissinin formalaşmasına da töhfə verir.

GİRİŞ. Ana dili hər bir xalqın milli kimliyinin əsas daşıyıcısı, mədəni yaddaşının təcəssümüdür. Azərbaycan dili dövlət dili statusu daşımaqla yanaşı, təhsil sisteminin də təməl sütunlarından biridir. Xüsusilə ibtidai siniflərdə bu dilin düzgün və effektiv şəkildə öyrədilməsi uşaqların təkcə dil biliklərinin deyil, eyni zamanda ümumi təfəkkür səviyyəsinin, intellektual və ünsiyyət bacarıqlarının inkişafına xidmət edir. [1, 34]

Müasir təhsil sistemi pedaqoji prosesin mərkəzinə şagirdi qoyaraq onun aktivliyini, maraq dairəsini və fərdi xüsusiyyətlərini nəzərə alır. Bu yanaşma Azərbaycan dili dərslərində də öz əksini tapmalıdır. Ənənəvi təlim metodlarının yerini müasir, şagirdyönümlü metodik strategiyalar tutmalıdır. Məqalənin məqsədi bu cür metodik yanaşmaların mahiyyətini izah etmək, onların ibtidai siniflərdə Azərbaycan dili tədrisinin keyfiyyətinə təsirini araşdırmaqdır.

ƏSAS HİSSƏ. Azərbaycan dili dərslərinin xüsusiyyətləri və məqsədlərindən danışarkən bunları qeyd etmək istərdim. Bildiyimiz kimi, ibtidai siniflərdə Azərbaycan dili dərsləri aşağıdakı əsas istiqamətləri əhatə edir:

–fonetik və leksik biliklərin formalaşdırılması

–yazı və oxu vərdişlərinin inkişaf etdirilməsi

–şifahi və yazılı nitq bacarıqlarının təkmilləşdirilməsi

–dil qaydalarının mənimsədilməsi və praktik tətbiqi

–ədəbi dil normalarının aşılanması



Bu məqsədlərə nail olmaq üçün sadəcə informativ deyil, həm də formativ və inkişafyönümlü təlim yanaşmaları tətbiq edilməlidir.

Müasir metodik yanaşmalar və onların tətbiqi baxımından isə bunları vurğulamaq istərdim:

Kommunikativ təlim metodu. Bu metodun əsas məqsədi şagirdin dili kommunikativ məqsədlərlə istifadə etməsini təmin etməkdir. Dərslərdə dialoqlar qurmaq, situasiyalara uyğun rollu oyunlar təşkil etmək, qrup işləri vasitəsilə fikir mübadiləsi aparmaq şagirdin aktiv iştirakını təmin edir. Kommunikativ təlim uşaqlarda sərbəst danışmaq bacarığı, qarşılıqlı anlaşma və fikrini düzgün ifadə etmə qabiliyyəti formalaşdırır.

Oyun əsaslı öyrənmə. Oyunlar ibtidai siniflərdə motivasiyanı artıran və tədris prosesini dinamik edən vacib metodlardandır. Dil oyunları (məsələn, “söz zənciri”, “tapmaca oyunu”, “doğru-cavab seçimi”) şagirdlərdə həm lüğət ehtiyatını genişləndirir, həm də dərsə maraq oyadır. Oyunlar həmçinin əməkdaşlıq, sürətli düşünmə və diqqət kimi bacarıqları da gücləndirir. [3, 81]

Fərdi yanaşma və diferensial təlim. Şagirdlərin fərdi fərqliliklərini nəzərə almaq müasir təlimin əsas prinsiplərindən biridir. Təlimin fərdiləşdirilməsi zəif və güclü şagirdlər arasında balansı qorumağa imkan verir. Müəllim tədris materiallarını müxtəlif səviyyələrə uyğunlaşdırmaqla bütün şagirdlərin tədrisdə uğur qazanmasına şərait yaradır.

İntegrativ və fənlərarası yanaşma. Azərbaycan dili dərslərinin digər fənlərlə inteqrasiya edilməsi – məsələn, musiqi, təsviri incəsənət və ya həyat bilgisi ilə – şagirdlərin öyrəndiklərini real həyatda tətbiq etməyə təşviq edir. İntegrativ dərslər daha yaradıcı, canlı və yadda qalan

olur. Məsələn, bir mətnin oxunması zamanı onun musiqi və ya rəsm ilə əlaqələndirilməsi şagirdlərin mətnə münasibətini müsbət dəyişir.

Müəllim amili və onun metodik hazırlığı. Azərbaycan dili müəllimləri yalnız bilik verən deyil, eyni zamanda istiqamət verən şəxs olmalıdır. Müəllimin pedaqoji ustalığı, metodik hazırlığı və psixoloji yanaşması dərsin keyfiyyətində həlledici rol oynayır. Müasir təlimdə müəllim şagirdi danışmağa, düşünməyə və sorğu-sual etməyə təşviq etməli, onun yaradıcılığını üzə çıxarmalıdır. Bunun üçün müəllimlərə mütəmadi təlimlər və metodik dəstək verilməlidir. [2, 62]

NƏTİCƏ. Yekun olaraq qeyd etmək istərdim ki, Aparılmış araşdırmalar göstərir ki, ibtidai siniflərdə Azərbaycan dili dərslərinin effektivliyi tədrisdə tətbiq olunan metodik yanaşmalardan birbaşa asılıdır. Ənənəvi izahlı təlim metodlarının müasir strategiyalarla əvəz olunması, dərslərin interaktiv, şagirdyönümlü və motivasiyaedici şəkildə qurulması dil öyrənmənin keyfiyyətini yüksəldir. Kommunikativ metod, oyun əsaslı öyrənmə, fərdi yanaşma və fənlərarası inteqrasiya şagirdlərin maraq və iştirak səviyyəsini artırır, nitq bacarıqlarını inkişaf etdirir. Həmçinin müəllim hazırlığı və metodik təkmilləşmə də bu prosesin əsas şərtlərindəndir.

Bu baxımdan, ibtidai sinif səviyyəsində Azərbaycan dili dərslərinin təşkili zamanı metodik yanaşmaların düzgün seçilməsi yalnız dərsin uğurlu keçməsini deyil, eyni zamanda milli-mənəvi dəyərlərin və dil şüurunun formalaşmasını da təmin edir.

Anahtar kelimeler: Azerbaycan dili, metodik yaklaşım, iletişimsel öğretim, oyun yöntemi, bireysel yaklaşım, öğretimin etkinliği, öğretim stratejileri.

Keywords: Azerbaijani language, methodological approach, communicative teaching, game method, individual approach, teaching effectiveness, instructional strategies.



ƏDƏBİYYAT

1.Əliyev M. Müasir təlim metodları. Bakı: Təhsil Nəşriyyatı, 2020.

2.Quliyeva S. İbtidai siniflərdə dil bacarıqlarının inkişafı yolları. Bakı: Elm və Təhsil, 2019.

3.Həsənova N. “Azərbaycan dili dərslərində kommunikativ təlimin tətbiqi”. Pedaqoji araşdırmalar jurnalı, 5(2), 45–51, 2021.

4.Məmmədova A. İnteqrativ təlim modelləri və onların tədrisə təsiri. Bakı: Təhsil, 2022.

5.Hüseynov E. “Oyunla öyrənmənin pedaqoji əsasları”. Azərbaycan müəllimi, № 12, s. 24–27, 2018.

# DEVELOPMENT OF ORAL AND WRITTEN LANGUAGE SKILLS IN PRIMARY SCHOOL STUDENTS

# İLKOKUL ÖĞRENCİLERİNDE SÖZLÜ VE YAZILI ANLATIMIN GELİŞİMİ

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ ŞİFAHİ VƏ YAZILI NİTQİN İNKİŞAFI

**ARZU KƏRİMOVA**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

**ORCİD:0000-0002-2662-6015**



## ÖZET

Sözlü ve yazılı anlatım becerileri, bireyin sosyal bir varlık olarak şekillenmesinde, çevresiyle iletişim kurmasında ve düşüncelerini ifade etmesinde önemli bir rol oynamaktadır. Bu beceriler özellikle erken yaş döneminde – ilkokul sürecinde – geliştirilmelidir ve temel dil alışkanlıkları bu dönemde kazanılmalıdır. İlköğretimin amaçlarından biri de öğrencilerde açık, tutarlı ve mantıklı düşünce ile desteklenen konuşma ve yazma becerilerini geliştirmektir. Öğrenciler ilk etapta günlük konuşma kalıplarıyla kendilerini ifade etmeye çalışırlar; ancak bu aşamada konuşmaları genellikle basit, sınırlı ve düzensiz olur. Bu nedenle öğretmenin ve öğretim sürecinin düzenleyicisinin rolü oldukça büyüktür.

Bu makalede ilkokul öğrencilerinde sözlü ve yazılı anlatımın gelişimi çeşitli açılardan incelenmektedir. Sözlü anlatımın doğallığı ve günlük iletişimdeki önemi ile birlikte yazılı anlatımın planlı, yapılandırılmış ve metne dayalı olması karşılaştırmalı şekilde açıklanmıştır. Anlatımın aşamalı gelişim ilkeleri, ilkokul düzeyinde hedeflenen kazanımlar ve bu doğrultuda kullanılan yöntem ve yaklaşımlar sistemli bir biçimde sunulmuştur. Anlatımın gelişimini engelleyen sosyal ve pedagojik sorunlar belirlenmiş ve çözüm yolları gösterilmiştir. Ayrıca makalede modern teknolojilerin, dil terapisi desteğinin ve bireysel yaklaşımın anlatım gelişiminde önemli rol oynadığı vurgulanmaktadır.

Sonuç olarak, ilkokullarda sözlü ve yazılı anlatımın gelişimi, genel eğitim sürecinin ayrılmaz bir parçası olarak değerlendirilmekte ve bu alanda uygulanacak doğru yöntemlerin, öğrencilerin gelecekteki başarıları için temel oluşturacağı ifade edilmektedir.

**Anahtar kelimeler:** Anlatım becerisi, sözlü anlatım, yazılı anlatım, ilkokul, öğretim, gelişim, iletişim.

## ABSTRACT

Oral and written communication skills play a crucial role in shaping a person as a social being, enabling them to communicate with their environment and express their thoughts. These skills must be developed particularly during the early years — the primary school period — and fundamental language habits should be formed at this stage. One of the key goals of primary education is to develop students' speech habits that are clear, coherent, and guided by logical thinking. At first, students attempt to express themselves through simple conversational forms; however, at this stage, their speech is often basic, limited, and unstructured. Therefore, the role of the teacher and the organizer of the educational process is highly significant.

This article explores the development of oral and written expression in primary school students from various perspectives. Alongside the spontaneity and importance of oral speech in daily

communication, the article compares the planned, structured, and text-based nature of written speech. It systematically presents the stages of speech development, the objectives set for each grade level in primary school, and the methods and approaches used in this direction. The article identifies the social and pedagogical challenges that hinder speech development and suggests possible solutions. Moreover, it emphasizes the important role of modern technologies, speech therapy support, and individualized approaches in the improvement of speech.

In conclusion, the development of oral and written language skills in primary school is considered an integral part of the overall educational process, and the proper application of methodological approaches in this area serves as a foundation for students' future success.

**Keywords:** Language skills, oral speech, written speech, primary school, teaching, development, communication

## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ ŞİFAHİ VƏ YAZILI NİTQİN İNKİŞAFI

Şifahi və yazılı nitq bacarıqları insanın sosial varlıq kimi formalaşmasında, mühitlə ünsiyyət qurmasında və öz fikirlərini ifadə etməsində mühüm rol oynayır. Bu bacarıqlar xüsusilə erkən yaş dövründə – ibtidai sinif mərhələsində inkişaf etdirilməli və təməl dil vərdişləri bu dövrdə formalaşmalıdır. İbtidai təhsilin məqsədlərindən biri də şagirdlərdə aydın, ardıcıl və məntiqi düşüncə ilə müşayiət olunan nitq vərdişlərini inkişaf etdirməkdir. Şagirdlər ilkin olaraq gündəlik danışıq formalarında fikrini ifadə etməyə cəhd edir, lakin bu mərhələdə onların nitqi çox zaman bəsit, məhdud və qeyri-müntəzəm olur. Bu səbəbdən müəllimin və təlim prosesinin təşkilatçısının rolu olduqca əhəmiyyətlidir.

Məqalədə ibtidai sinif şagirdlərində şifahi və yazılı nitqin inkişafı məsələsi müxtəlif aspektlərdən araşdırılır. Şifahi nitqin spontanlığı və gündəlik ünsiyyət üçün əhəmiyyəti ilə yanaşı, yazılı nitqin planlı, strukturlaşdırılmış və mətn əsaslı olması müqayisəli şəkildə izah olunur. Nitqin mərhələli inkişaf prinsipləri, ibtidai siniflər üzrə qarşıya qoyulan məqsədlər, bu istiqamətdə istifadə edilən metod və yanaşmalar sistemli şəkildə təqdim edilir. Nitqin inkişafına mane olan sosial və pedaqoji problemlər müəyyənləşdirilir və onların həlli yolları göstərilir. Məqalədə həmçinin müasir texnologiyaların, loqopedik dəstəyin və fərdi yanaşmanın nitqin inkişafında mühüm rol oynadığı vurğulanır.

Nəticə olaraq, ibtidai siniflərdə şifahi və yazılı nitqin inkişafı ümumi təhsil prosesinin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilir və bu sahədə düzgün metodik yanaşmanın tətbiqi şagirdlərin gələcək uğurları üçün baza rolunu oynayır. [1, 12-13]



Giriş. Nitq uşağın sosial mühitlə ünsiyyət qurmaq bacarığını müəyyən edən əsas vasitədir. Məktəbəqədər yaş dövründə təməli qoyulan şifahi nitq bacarıqları ibtidai sinif mərhələsində daha da inkişaf etdirilir və zənginləşdirilir. Bu mərhələdə uşaqlar sadə cümlələrdən mürəkkəb quruluşlu cümlələrə keçid edir, yazılı nitqin təməl prinsiplərini mənimsəyirlər. İbtidai sinif müəllimi bu prosesdə əsas istiqamətləndirici şəxs rolunu oynayır.

Şagirdlərin nitqinin inkişafı onların müstəqil fikirləşməsi, mətn anlama, mətn qurma və sərbəst şəkildə öz fikrini ifadə etmə bacarıqlarını formalaşdırır. Bu səbəbdən nitqin inkişafı yalnız dil fənni ilə məhdudlaşmır, eyni zamanda digər fənlərin tədrisi zamanı da nəzərə alınmalıdır.

1. Şifahi və yazılı nitqin əsas xüsusiyyətləri. Şifahi nitq — insanın fikrini səs vasitəsilə qarşı tərəfə çatdırmasıdır. Bu nitq növü spontan şəkildə baş verir və daha çox gündəlik ünsiyyət zamanı istifadə olunur. İbtidai sinif şagirdlərində şifahi nitq əsasən aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

–sadə və təkrar olunan ifadələr;

–emosional vurğu və intonasiya;

–gündəlik məişət söz ehtiyatı;

–nitq zamanı jest və mimikalardan istifadə.

Yazılı nitq isə strukturlaşdırılmış və planlı şəkildə qurulur. Yazılı şəkildə fikrin ifadəsi daha çox mətn qurma, qrammatik qaydalara əməl etmə və düzgün fikir ardıcıllığı tələb edir. İbtidai siniflərdə yazılı nitqin inkişafı aşağıdakı istiqamətlər üzrə aparılır:

–mətnin strukturuna uyğun olaraq giriş, əsas hissə və nəticə bölmələrinin öyrədilməsi;

–söz ehtiyatının zənginləşdirilməsi;

–yazı vərdişlərinin (xətt, sətir, punktuasiya) formalaşdırılması. [2, 91]

2. Şifahi və yazılı nitqin inkişaf mərhələləri. Nitq inkişafı mərhələli şəkildə aparılmalı və hər yaş dövrünə uyğun metodik yanaşma seçilməlidir. İbtidai siniflərdə bu mərhələlər aşağıdakı kimi müəyyən edilir:

I sinif:

–əsasən şifahi nitqin təkmilləşdirilməsi;

–qısa hekayə və şəkil təsvirləri üzərində iş;

–əsas söz ehtiyatının formalaşdırılması.

II sinif:

–kiçik həcmli yazılı mətnlərin qurulması;

–mətnin hissələrə bölünməsi;

–sual-cavab və situativ tapşırıqlar.

III sinif:

–fikrin ardıcıllıqla ifadəsi;

–məqalə, məktub, təbrik kimi mətn nümunələri üzərində iş;

–sinxron olaraq şifahi və yazılı nitqin inkişaf etdirilməsi.

IV sinif:

–müxtəlif janrlı mətnlərin yazılması;

–tənqidi düşüncə və mülahizə bildirmə bacarığının inkişafı;

–şagirdin müstəqil danışıq və yazı bacarığına yiyələnməsi.

3. Müəllimin rolu və metodik yanaşmalar. Müəllimin əsas vəzifəsi şagirdin dil potensialını üzə çıxarmaq və inkişaf etdirməkdir. Bu məqsədlə müəllim aşağıdakı metodlardan istifadə etməlidir:

a) sual-cavab metodu: şagirdlərin fəal iştirakı təmin olunur;

b) diskussiya və debat: tənqidi və yaradıcı təfəkkür formalaşdırılır;

c) şəkil və vizual materiallardan istifadə: nitqin kontekstli inkişafı;

d) rol oyunları və dramlaşdırma: şifahi ifadənin canlandırılması;

e) mətn yazıları: yazılı nitqin texniki bacarıqları inkişaf etdirilir.

Müasir təlim texnologiyaları, xüsusilə interaktiv lövhə və elektron resurslardan istifadə də nitqin inkişafında mühüm rol oynayır. [4, 55-56]

4. Nitq inkişafında qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları. İbtidai sinif şagirdləri arasında nitq pozuntuları və zəif ifadə qabiliyyəti halları kifayət qədər geniş yayılmışdır. Bu hallar aşağıdakı səbəblərlə bağlı ola bilər:

–ev mühitində ünsiyyət imkanlarının zəifliyi;

–ədəbi dilə laqeyd yanaşma;

–qeyri-kafi oxu vərdişləri;

–nitqə yönəlik metodların kifayət qədər tətbiq edilməməsi.

Bu problemlərin həlli üçün təklif olunan tədbirlər:

1.Ailə-məktəb əməkdaşlığının gücləndirilməsi;

2.Şagirdlərin mütaliəyə təşviqi;

3.Loqopedik və psixoloji dəstəyin təşkili;

4.Fərdi yanaşmanın tətbiqi ilə şagirdin potensialına uyğun tədris metodlarının seçilməsi. [3, 49]

5. Yazılı və şifahi nitqin qarşılıqlı əlaqəsi. Şifahi və yazılı nitq bir-birini tamamlayan iki əsas kommunikasiya vasitəsidir. İbtidai sinifdə bu əlaqənin düzgün qurulması üçün aşağıdakı istiqamətlər vacibdir:

1.Şifahi fikrin yazıya çevrilməsi tapşırıqları;

2.Mətnlərin oxunması və danışıqla şərh edilməsi;

3.Qısa şifahi nitqlərin yazılı təqdimatı;

4. Müxtəlif ünsiyyət vəziyyətlərinin simulasiya olunması. [5, 71]



Nəticə. Yekunda qeyd etmək istərdim ki, ibtidai sinif şagirdlərində şifahi və yazılı nitqin inkişafı ümumi təhsil sisteminin əsas strateji istiqamətlərindən biri olaraq təhlil edilməlidir. Nitq bacarıqlarının zəifliyi, digər fənlərin mənimsənilməsində də ciddi maneələr yaradır. Bu səbəbdən ibtidai sinif mərhələsi yalnız ilkin biliklərin verildiyi dövr deyil, həm də şagirdin kommunikativ, yaradıcı və intellektual potensialının formalaşdığı vacib inkişaf mərhələsidir.

Şagirdlərdə düzgün və ardıcıl danışıq bacarığının formalaşdırılması onların öz fikirlərini cəsarətlə ifadə etmələrinə, nitq vasitəsilə qarşı tərəfə aydın mesaj çatdırmalarına şərait yaradır. Yazılı nitqin inkişafı isə məntiqi düşüncənin möhkəmlənməsi, strukturlu mətn qurmaq bacarığı və dil qaydalarına əməl etmək vərdişlərinin aşılanması ilə nəticələnir. Bu sahədə əldə olunan uğurlar gələcək illərdə şagirdlərin yazılı ifadə, təqdimat, təqdim etmə və ümumilikdə səlis nitq bacarıqları ilə birbaşa bağlıdır.

Müəllimin bu prosesdəki rolu əvəzsizdir. Müəllim yalnız bilik ötürən deyil, həm də nitqə yönəldən, onu inkişaf etdirən, hər bir şagirdin fərdi potensialını üzə çıxaran şəxs olmalıdır. Bu məqsədlə müəllimlər müasir pedaqoji texnologiyalardan, interaktiv metodlardan, fərdi yanaşmalardan istifadə etməli, şagirdlərdə dilə və nitqə maraq yaratmalıdırlar. Əlavə olaraq, ailə-məktəb əməkdaşlığı da şagirdin nitq inkişafını dəstəkləyən mühüm faktorlardandır.

Sonda qeyd etmək olar ki, ibtidai siniflərdə şifahi və yazılı nitqin inkişafına sistemli, məqsədyönlü və ardıcıl yanaşma şagirdlərin təlim-tərbiyəsində müsbət nəticələrin əldə olunmasını təmin edəcək və onların cəmiyyətə fəal, savadlı və özünü ifadə etmə bacarığına malik fərdlər kimi yetişməsinə imkan yaradacaqdır.

Anahtar kelimeler: anlatım becerisi, sözlü anlatım, yazılı anlatım, ilkokul, öğretim, gelişim, iletişim.

Keywords: language skills, oral speech, written speech, primary school, teaching, development, communication.

Ədəbiyyat siyahısı

1.Quliyev M. Nitq mədəniyyəti və onun inkişaf yolları. Bakı: Elm və Təhsil, 2021.

2.Əliyeva S. Uşaqlarda yazı və danışıq vərdişlərinin formalaşdırılması. Bakı: Nurlan, 2020.

3.Məmmədova G. İbtidai təhsildə dilin tədrisi metodikası. Bakı: Maarif, 2019.

4.Hüseynli N. Loqopedik xidmətin məktəb təcrübəsində tətbiqi. Gəncə: GDU nəşriyyatı, 2022.

5.Abbasova R. Məktəbəqədər və ibtidai yaşlı uşaqlarda nitq inkişafı. Şəki: Səda, 2023.

# ASHIG LITERATURE

**Dr. Ülker Bahşiyeva**

**ADPU-nun Filoloji fakültesinin,Edebiyatın tedrisi teknolojisi bölümünün baş öğretim üyesi,ORCID İD 0000-0002-5994-2356**

**Summary**

M. Ibrahimov occasionally addressed issues related to Ashig (folk minstrel) art in his works. As a writer deeply familiar with and fond of his people's culture, he understood the exceptional role of Ashig art in preserving national identity and attached great importance to it. His research shows that M. Ibrahimov had a profound knowledge of this art form, took pride in it, and contributed to its preservation through his own creative work.

Key words: M. Ibrahimov, ashıg, music, poetry, classification

## INTRODUCTION

Academician M. Ibrahimov was, above all, a talented writer who was deeply familiar with the artistic subtleties of the Azerbaijani language. His literary talent and the poetic sweetness of his language are clearly reflected in his scientific writings as well. The scholar had very interesting ideas regarding the poetic structure of the ashig (folk bard) art. According to the great writer and literary scholar:

– The entire power and grandeur of ashig art is determined by its direct connection with the spiritual world of the people;
– Ashig art reflects the national identity and ethnographic uniqueness of the people, turning the essence of the nation into a mirror of art;
– Ashig creativity, in terms of its entire genre structure, reflects the specific characteristics of folk art genres;
– Even at the highest level of idealization of reality, ashig creativity does not become detached from the life of the people. M. Ibrahimov calls this realism;
– From the perspective of linguistic aesthetics, ashig creativity is entirely based on the people's language;
– Ashig word and music creativity are united, and this unity derives its artistic-aesthetic power from the poetic spirit of the people.

It should be noted that the final thesis is of great importance. M. Ibrahimov's idea that *"when one pays attention to the style and formal features of ashig poetry and ashig music, the closeness to the spirit of the people clearly stands out"* points to complex and profound issues. In this statement, the author brings together three elements in a single line: ashig poetry, ashig music, and the spirit of the people.The alignment of these three elements reveals their unity. In other words, ashig music and ashig poetry are inextricably linked. It is impossible to separate them from one another. As Sədnik Paşa Pirsultanlı writes:

*"The ashig's saz and word were born as twins. All the known forms of ashig poetry—gerayli, goshma, divani, tajnis, and mukhammas—were created in connection with the saz. Each poetic genre has attached its own expressive tone to a specific fret (pardeh) on the neck of the saz. The goshma has its speaking royal fret, and both the divani and tajnis have their own independent frets"* (7, p. 393).

He continues: *"When ashig poetry is studied in connection with the saz and its melodies, not only its formal features become clearer, but also the spirit in which this folk art has historically existed, its relationship with both oral and written poetry, and its main themes are also revealed"* (7, p. 82). *"Ashig creativity has its own inherent laws. The development of ashig poetry, music, and dastan (epic tales) begins only after their creation. Performing ashigs often adapt poetry to the saz, sometimes shortening a stanza or line, altering expressions or their order, and in doing so, align the poetry with the tonal and fret demands of the instrument. They associate the poem with an appropriate saz melody"* (6, p. 82). As can be seen, M. Ibrahimov observed the relationship between the poetic structure of ashig poetry and the structure of ashig music, and he emphasized that this connection is rooted in the spirit of the people. He expressed his view on this matter quite clearly in another of his works titled *"Realism in Ashig Poetry"*, where he stated: *"In the art of ashigs, word, music, and performance have developed in artistic unity. New melodies have been created to match new words, new poetic forms, and new meters—and conversely, as musical forms changed, corresponding poetic forms also emerged"* (3, p. 468).

In the article "An Inexhaustible Treasure," written during a period when Soviet ideology was at its most rigid, the connection between ashig art and religion is also addressed. The author writes: *"There is no doubt that, depending on the characteristics of each historical era, the content and form of ashig art, like other forms of art, have changed. At times, reactionary ideological currents, particularly religious beliefs and concepts that held sway in their time, also influenced ashig art. Works promoting mystical and superstitious ideas emerged. However, ashig art has never lived apart from or distant from the people"* (3, p. 389).

It is well known that ashig poetry is rich in divine ideas from beginning to end. In general, there is nothing in ashig poetry that could be perceived as atheistic. For ashigs, God stands unequivocally above both right and wrong. That is precisely why patriotic intellectuals like M. Ibrahimov, who lived in a society governed by an ideology that orchestrated the bloody purges of 1937 and aggressively rejected religious values, felt compelled to write such things in order to preserve ashig art—a vessel for the nation's moral and spiritual values—and to prevent it from becoming a casualty of ideology.



However, another important point in Ibrahimov's thought deserves attention: his deep understanding of the philosophical essence of ashig poetry. He does not only mention the religious dimension of ashig art but also refers to mystical ideas. This *"mysticism"* clearly refers to Sufi-intellectual concepts, images, and motifs, further demonstrating Ibrahimov's profound insight into the philosophical depth and content of ashig creativity.

---

Another notable aspect of the "An Inexhaustible Treasure" article is M. Ibrahimov's classification of ashigs as artists. He writes: *"It is known that, in the classical sense, an ashig is a person who unites creativity and performance. A classical ashig is someone who can compose poetry, create music, and perform both. Of course, such individuals usually performed not only their own works but also those of others. These are the master ashigs, their talent is universal and multifaceted. Such individuals were rare in the past and remain rare today."* (3, p. 397)

Ibrahimov continues: *"The second group of ashigs consists of those who only compose poetry—they are poets. They do not create music, they do not play instruments, sing, or perform. They only write poetry, which is an honorable endeavor. Creating high-quality ashig literature is itself a great service to the people."* (3, p. 397) *"The third group of figures in ashig art are*

*performers only—they neither write poetry nor compose music. They perform the works of others. Their entire creative ability lies in their performance. Undoubtedly, they too deserve the title of artistic ashig, provided that they truly possess a beautiful voice, refined performance skills, and good taste. They must learn and faithfully convey the best goshmas, geraylis, tajnises, tales, and epics, without distorting the words or melodies, and share them with genuine artistry."* (3, p. 400)

As seen, M. Ibrahimov classified ashigs based on their artistic and creative characteristics. At first glance, this may seem like a simple approach. However, the classification of ashigs is a complex topic within the field of ashig studies, and various scholars have proposed different classifications over time.

For example, Israfil Abbasli divided ashigs and folk poets into three categories:

1. Ashigs or saz poets;

2. "Qalam shuara" (literary poets) – poets with formal education who wrote in both syllabic and aruz (quantitative) meters but did not play instruments;

3. Folk poets – those who composed poetry in syllabic meter like ashigs, but did not know how to play the saz (1, pp. 9–10).

A. Nabiyev also classified folk artists into three groups:

1. master ashigs,

2. performer ashigs,

3. and folk poets (7, p. 305).

This three-tiered classification is also supported by the research of other folklorists, including M. Allahmanli (5). When we compare these systems to M. Ibrahimov's classification from his 1960 article, we see that he, too, identified three groups: 

Master Ashigs – those who compose poetry, create music (melodies), and perform them;

Poet-Ashigs – also known as folk poets, who compose poetry but do not perform;

Performer Ashigs – those who only perform, without composing poetry or creating melodies.

As is evident, the classifications proposed by A. Nabiyev, I. Abbasli, S.P. Pirsultanli, M. Hakimov, and M. Allahmanli largely align with M. Ibrahimov's earlier typology. The key difference is that I. Abbasli combines creative and performing ashigs into a single group but distinguishes between two types of poets associated with ashig tradition

those who write solely in syllabic meter (modern-day "folk poets"), and those educated poets who compose in both syllabic and aruz meters (referred to as literary poets).It is particularly interesting that M. Ibrahimov included non-performing poets—those who composed poetry for ashigs but did not sing or play instruments—under the umbrella of "ashigs." However, in Western ashig traditions (such as in Goycha and Borchali), such artists were referred to explicitly as "poets" (şair), not ashigs, even if they participated in social events like weddings or village gatherings.

For example, many renowned wordsmiths known as "poet" in Goycha include: poet Mammadhuseyn,poet Almammad,poet Aydın,poet Aziz, poet Kazım. According to Tinatin Isabali qizi's research, the neighboring Borchali ashig tradition also used the term "şair" for such individuals. She notes: *"The Borchali ashig tradition recognizes as poets (şair) such figures as Şair Qul Qarani, Şair Nəbi, Şair Ağacan, Şair Bayram, Şair Bağı, Şair Qara Qərib, among others"* (2, p. 33).

As a devoted admirer of ashig art, M. Ibrahimov, like a true intellectual of the people, defended the integrity of the tradition. He stood firmly against those who distorted or cheapened it—including ashigs themselves who treated the art form carelessly. He wrote: *"Among ashigs, one can often encounter unqualified individuals, even outright hacks. Without learning the true characteristics of ashig art, they start 'performing' after barely strumming a saz. They mix mugham, folk melodies, and ashig tunes together, creating bizarre hybrids. This must not be allowed"* (3, p. 400).

References

1. Beqdeli, Q. *(1963).* Mahammad Huseyn Shahriyar *(monograph).* Baku: Azərnəşr. 39 pages.

2. Əfəndiyev, P. *(1992).* Azerbaijani Oral Folk Literature. Baku: Maarif. 480 pages

3. Ibrahimov, M. *(1982).* Works in 10 Volumes, Vol. IX. Baku: Yazıçı Publishing. 664 pages.

4. Ibrahimov, M. *(1966).* Realism in Ashig Poetry. Baku: Elm Publishing. 81 pages.

5. Ismayilov, H. *(2001).* The Divine Mystic – The Voice of Truth (Foreword), in: *Misgin Abdal. Collected and edited by H. Ismayilov*. Baku: Səda. pp. 3–22.

6. Qasımlı, M. *(1996).* Ashig Art. Baku: Ozan Publishing. 260 pages.

7. Təhmasib, M.H. *(1972).* Azerbaijani Folk Epics (Medieval Period). Baku: Elm Publishing. 399 pages.

# SOSİAL MEDİANIN DİLİN ÖYRƏNİLMƏSİNDƏ ROLU

**Şəfiyeva Günel Elxan qızı**

**ADPU-nun Xarici Dillər Mərkəzinin müəllimi**

**Orcid id: 0000-0001-5105-2749**

**Açar sözlər:** Sosial media, dilin öyrənilməsi, sosial medianın üstünlükləri və çatışmazlıqları.

Sosial media müasir həyatın bir çox sahəsində inqilab yaradıb, o cümlədən dilin öyrənilməsindədə böyük rol oynayır.

Dinamik platformaları ilə sosial media yalnız şəxsi əlaqələri deyil, həm də təhsil məqsədlərini, o cümlədən yeni dillərin öyrənilməsini asanlaşdırır. Sosial medianın dil öyrənməyə inteqrasiyası interaktiv, cəlbedici və əlçatan metodlardan istifadə edərək təhsil təcrübəsini zənginləşdirir və öyrənənlərə real həyatda tətbiq olunan dil mühitinə çıxış imkanı yaradır.

Dil öyrənmək üçün sosial mediadan istifadənin üstünlükləri

1. Əlçatanlıq və Elastiklik: Sosial media platformalarına istənilən cihazdan və istənilən vaxt daxil olmaq mümkündür, bu isə öyrənənlərə dili istədikləri zaman və məkanda öyrənmək və təcrübə etmək imkanı verir. Bu rahatlıq fasiləsiz öyrənməni və ənənəvi sinifdən kənar dil mühitində immersiyanı gücləndirir.

2. Real-zamanlı qarşılıqlı əlaqə:Twitter, Facebook və Instagram kimi platformalar öyrənənlərə ana dilində danışanlarla və digər dil öyrənənlərlə birbaşa və real zamanda ünsiyyət imkanı yaradır. Bu ünsiyyət danışıq bacarıqlarının inkişafı, mədəni incəliklərin anlaşılması və dərhal rəy alınması üçün çox vacibdir.

3. Orijinal dil mühitinə maraq: Sosial media öyrənənlərə dili təbii formada – ana dilində danışanlar tərəfindən necə istifadə olunursa elə də təqdim edir. Bu, dərsliklərdə rast gəlinməyən arqo, idiom və ifadələri də əhatə edir ki, bu da anlayış və səlislik baxımından zəngin təcrübə yaradır.

4. Müxtəlif öyrənmə resursları: Sosial media müəllimlər, dil həvəskarları və digər öyrənənlər tərəfindən paylaşılan müxtəlif öyrənmə materialları təqdim edir. Buraya dil öyrənmə videoları, podkastlar, məqalələr və müxtəlif öyrənmə səviyyələrinə uyğun interaktiv testlər daxildir.

5. Motivasiya və icma dəstəyi:Dil öyrənmək çətin bir proses ola bilər, lakin sosial media bu çətinliyi icma dəstəyi və qarşılıqlı əlaqə ilə asanlaşdırır. Öyrənənlər qruplara qoşula, çağırışlarda iştirak edə və tərəqqilərini paylaşa bilərlər. Bu da öyrənənlər arasında motivasiyanı və ruh yüksəkliyini artırır.

Dil öyrənmək üçün məşhur sosial media platformaları

1. Duolingo: Əsasən tətbiq olaraq tanınsa da, Duolingo-nun sosial xüsusiyyətləri istifadəçilərə dostlarla yarışmaq və nailiyyətlərini paylaşmaq imkanı verir ki, bu da öyrənməyə əyləncəli və rəqabətli element əlavə edir.

2. Twitter:Twitter-in real-zamanlı kommunikasiya modeli tez-tez və qısa dil təcrübələri üçün mükəmməldir. İstifadəçilər ana dilində danışanları izləyə, söhbətlərə qoşula və xüsusi həştəqlərlə dil öyrənmə çağırışlarında iştirak edə bilərlər.

3. YouTube:Mövcud olan ən böyük təhsil mənbələrindən biri olan YouTube, saysız-hesabsız dil öyrənmə kanalları təqdim edir. Bu kanallarda dərslər, məsləhətlər və mədəni məlumatlar yer alır ki, bunlar hərtərəfli dil təhsili üçün vacibdir.

4. Instagram:Vizual formata malik olan Instagram vizual öyrənənlər üçün idealdır. Dil müəllimləri tez-tez lüğət kartları, qısa videolar və məlumat qrafikləri paylaşaraq dil konsepsiyalarının yadda qalmasını və başa düşülməsini asanlaşdırır.

5. Reddit: İcma əsaslı forumları ilə tanınan Reddit, istifadəçilərin suallar verə, təcrübə paylaşa və praktika üçün dil tərəfdaşları tapdığı xüsusi icmalara malikdir.

Sosial mediada dilin öyrənilməsi üçün lazımi strategiyalar.

1. Aydın məqsədlər müəyyənləşdirin:Sosial mediada dil öyrənməklə nəyi hədəflədiyinizi müəyyən edin – bu yeni söz öyrənmək, qrammatikanı mənimsəmək və ya danışıq bacarıqlarınızı inkişaf etdirmək ola bilər. Aydın məqsədlər fəaliyyət və qarşılıqlı əlaqələrinizi istiqamətləndirəcək.

2. Daimi fəallıq göstərin:Dil öyrənmədə ardıcıllıq əsas şərtdir. Dil məzmunu və icmalarla mütəmadi təmasda olmaq üçün cədvəl tərtib edin. Bu, gündəlik qarşılıqlı əlaqə, həftəlik müzakirələrə qoşulmaq və ya aylıq çağırışlarda iştirak ola bilər.

3. Multimedia-dan istifadə edin: Sosial medianın multimedia imkanlarından istifadə edin. Yalnız dili deyil, həm də onun mədəni kontekstini təqdim edən podkastlara, videolara və məqalələrə baxın.

4. Ana dilində danışanlarla ünsiyyət qurun: İmkan olduqca, sosial mediada ana dilində danışanlarla əlaqə yaradın. Bu təcrübə çox qiymətlidir və çox vaxt formal təhsildə toxunulmayan mədəni məqamlar haqqında məlumat əldə etməyə kömək edir.



5. Tərəqqinizi izləyin və qiymətləndirin: Dil öyrənmədəki irəliləyişlərinizi izləmək üçün jurnal saxlayın və ya rəqəmsal alətlərdən istifadə edin. Nə işləyir, nə daha çox diqqət tələb edir – bu barədə düşünün və öyrənmə strategiyanızı bu təhlilə əsasən tənzimləyin.

Sosial medianın dil öyrənənlər üçün çoxsaylı üstünlükləri olsa da, bəzi çətinliklər də mövcuddur. Sosial mediadakı qeyri-rəsmi dil istifadəsi yanlış qrammatika və ya kontekstdən kənar arqo öyrənilməsinə səbəb ola bilər ki, bu da peşəkar və rəsmi mühitlər üçün uyğun deyil. Bundan əlavə, sosial media platformalarında rəqəmsal yayındırmalar öyrənməyə fokuslanmağa mane ola bilər. Bu çətinlikləri aradan qaldırmaq üçün öyrənənlər istifadə etdikləri mənbələri diqqətlə seçməli və formal və qeyri-formal resursları balanslı şəkildə birləşdirməlidirlər.

Sosial media dünya üzrə dil öyrənənlərin arsenalında əvəzolunmaz bir alətə çevrilib. Çoxşaxəli resurslar, real-zamanlı qarşılıqlı əlaqə və icma dəstəyi ilə sosial media platformaları dil öyrənmə təcrübəsini əhəmiyyətli dərəcədə zənginləşdirə bilər. Lakin öyrənənlər bu platformalarda ağılla hərəkət etməli və ən yaxşı nəticə üçün onları ənənəvi öyrənmə metodları ilə birləşdirməlidirlər. Rəqəmsal məkan inkişaf etdikcə, sosial medianın dil öyrənməni daha da asanlaşdırma potensialı artacaq və bu, bütün öyrənənlər üçün həyəcanverici imkanlar yaradacaq.

# RUSSIAN CHILDREN'S LITERATURE

# RUS UŞAQ ƏDƏBİYYATI

**Aygun Ahmadova Shukur kızı**

**Azerbaycan Devlet Pedagoji Üniversitesi (Ü. Hacıbeyov-68), 0000-0002-2464-2513**

**Aygün Ahmadova, Edebiyat Öğretim Teknolojileri Bölümü**

**Anahtar kelimeler:** bitmemiş, fakir, insanlar, vatansever, yazar, toplum, insanlık

**Keywords**: unfinished, poor, people, patriot, writer, society, humanity

Vissarion Grigoryeviç Belinskinin özünün dahi bir ədəbiyyat tənqidçisi kimi yetişməsinin sirri onun xalqa bağlı olması, xalq ilə birlikdə nəfəs alması idi. Onun yaşayıb yaratdığı dövrdə Rusiyada bir neçə məktəb bitirmiş, elmlərə yiyələnmiş alimlər çox idi. Belinski isə yarımçıq qalmış gimnaziya və yenə yarımçıq qalmış ali təhsil görmüş və maddi imkanları çox məhdud olan, cəmisi 37 il ömür sürən, gənc bir jurnalist idi. Bununla belə, Rusiyanın müasir estetik nəzəriyyəsini, elmi tənqidini yaratmaq şərəfi yoxsul jurnalistə nəsib oldu, çünki o, gücünü xalqdan aldı, xalqa arxalandı.

Belinski sənətdə xəlqilik anlayışının obyektiv şərtlərini-xalq həyatının doğru-düzgün əks etdirilməsini, realizmi əsas şərt olaraq nəzərdə tutduğu kimi, yaradıcılıq prosesində subyektiv momenti də nəzərdə tutur, başqa sözlə, yazıçının özünün də ruhən, qəlbən mənsub olduğu xalqa nə qədər bağlı olub-olmamasını da mühüm şərt sayırdı. "Ədib ruhən, təbiəti etibarı ilə xalqa bağlıdırsa, belə bir yazıçı üçün xəlqi olmaqdan asan iş yoxdur, əksinə, əgər siz xalqdan uzaq düşmüsünüzsə, özünüzü nə qədər yorsanız da, xəlqi ola bilməyəcəksiniz... xəlqi olmaq üçün özünü zorlamaq, xəlqi olmaq qabiliyyətindən məhrum olmağın ilk əlamətidir. Yaradıcılıqda xəlqi olmaq özü də bir növ istedaddır". Belə istedadlara nümunə olaraq tənqidçi Krılovu, Puşkini, Qoqolu, Lermantovu göstərirdi.

Xəlqiliyi, vətənpərvərliyi ehtirasla təbliğ edən Belinski eyni zamanda dönə-dönə deyirdi ki, həqiqi xəlqilik və vətənpərvərlik heç də insanpərvərlikdən ayrı bir şey deyildir və olmamalıdır, şübhəsiz ki, "hər bir şüurlu vətəndaşın qəlbində vətən taleyi qayğısı dərin kök salır, hər bir nəcib şəxs özünün vətən ilə qan qohumluğunu, qan yaxınlığını dərindən anlayır, dərk edir... Canlı insan öz ruhunda, öz qəlbində, öz qanında mənsub olduğu cəmiyyətin həyatını gəzdirir; O, cəmiyyətin dərdləri ilə dərdlənir, iztirabları ilə iztirablanır, əzab çəkir; cəmiyyətin sağlamlığı, gümrahlığı ilə şadlanır, gümrahlanır, cəmiyyətin xoşbəxtliyi ilə könül xoşluğu duyur, həm də, özünün xüsusi şəxsi vəziyyətindən asılı olmadan, cəmiyyətin səadətindən fərəhlənir... Vətəndaş gərək insanı məhv etməsin, insan da vətəndaşı məhv etməsin, əks halda birtərəflilik əmələ gələr, birtərəflilik isə məhdudluğun doğma bacısıdır. Öz vətənini sevmək, onda ümumi insanlıq idealının həyata keçməsini görməyi hərarətlə arzu etmək və öz qüvvəsi daxilində bu bəşəri idealı tezliklə həyata keçirməyə səy etmək deməkdir. Əks təqdirdə, məhdud təəssübkeşlik əmələ gələr, elə bir təəssübkeşlik ki, özününkünü sevir, ona görə ki, özününküdür, başqasınınkını görməyə gözü yoxdur, ona görə ki, başqasınındır və özünün eybəcərliyini, mənsubluğunu da çox sevir, ona görə ki, özününküdür...

Vətənə məhəbbət gərək insanlığa məhəbbətdən doğsun, necə ki, xüsusi ümiddən doğur". Görkəmli rus tənqidçisi, ədəbiyyatçısı Vissarion Belinskinin yaradıcılığında uşaq ədəbiyyatının

inkişafına xüsusi diqqət vardı. "Kitab bizim zəmanənin həyatıdır. Ona hər kəs, eləcə də uşaqlar ehtiyac duyurlar. Bütün məsələ onlar üçün kitab seçməkdədir və birinci olaraq biz bu fikirlə razılaşırıq ki, yanlış seçilmiş kitabı oxumaq onlar üçün heç nə oxumamaqdan pis və zərərlidir.

Uşaq kitabları insanların mənəvi sərvət xəzinəsi, insanın tərəqqi yolunda yaratdığı ən qiymətli xəzinədir; onda insanların duyğuları, emosiyaları, yaşantıları ifadəsini tapır. Uşaq ədəbiyyatı ümumi ədəbiyyatın üzvi hissəsidir, lakin o spesifik ədəbiyyatdır. Uşaq ədəbiyyatı balaca uşağın tərbiyəedilmə, şəxsiyyətinin formalaşdırılma vasitəsidir... Uşaqlar nəticə, təsdiq və məntiqi ardıcıllıq tələb etmirlər, onlara surətlər, rənglər və səslər lazımdır. Uşaqlar ideyaları sevmirlər, onlara tarixi rəvayətlər, povestlər, nağıllar və hekayələr lazımdır."

Belinskinin təliminə görə, hələ həyatı anlamayan uşağın beynini mücərrəd ideyalarla doldurmaqdansa, əvvəlcə onları həyata hazırlamaq, sonra mütərəqqi ideyalar aşılamaq gərəkdir. Xüsusi olaraq uşaqlar üçün yazılan kitablar onun ən mühüm tərəflərindən biri olaraq tərbiyə planına daxil olmalıdır.

Belinskinin rus uşaq ədəbiyyatında pedaqoji tələbləri-uşağa hörmət, onun fərdi özəlliklərinin inkişaf etdirilməsidir. O, şəxsiyyətin harmonik inkişaf ideyasını müdafiə edirdi. Tərbiyə uşaqların yaş özəlliklərini nəzərə almalı, onların fiziki və mənəvi imkanlarını inkişaf etdirməli, əxlaqi, vətənpərvərlik hisslərini formalaşdırmalıdır…Tərbiyə-çox böyük işdir; insanın taleyi onunla həll olunur. Tərbiyənin insanın taleyinə, onun dövlətə, yaxınlarına və doğmalarına, özünə münasibətinə mühüm dərəcədə təsiri olduğu haqda çox danışılır. Uşaqlarda hələ erkən yaşlarından insaniliyin ən ilk elementlərindən olan zərifliyi, gözəlliyi duyma hissi inkişaf etdirilməlidir... Onlarda həmçinin gözəl, möhtəşəm olan hər şeyin mənbəyi sayılan estetik hissi inkişaf etdirin, ona görə ki, estetik hissdən məhrum olan adam heyvanlıq dərəcəsində dayanır. Uşaqlar üçün kitablar yüksək bədiilik, estetik, əxlaqi tərbiyə qaynağı olmalıdr".



Uşaq ədəbiyyatı nəzəriyyəsinin inkişafı üçün Nikolay Qavriloviç Çernışevski tərəfindən də çox iş görülmüşdür. O qeyd edirdi ki, uşaq yazıçısının müxtəlif yaşlı uşaqların özəlliklərini, onların tələbatını, psixologiyasını dərk etməsi zəruridir. Yadda saxlamaq vacibdir ki, ünvan dəqiq olmalıdır, çünki heç də hər kitaba uşaq ağlının güçü yetməz. "Ədəbiyyat-həyat dərsliyidir". Bu müddəanı Çernışevski uşaq ədəbiyyatına aid etməklə, onu əvəzedilməz silah sayırdı.

Nikolay Dobrolyubovsa çalışırdı ki, uşaq kitabında müəllif mövqeyi və əsərin ayrı-ayrı hissələri arasında vəhdəti tapmaqda, uşaqlar üçün maraqlı və faydalı faktları seçməkdə kömək edə bilən başlıca ideya aydın görünsün. "Ümumi təsvirə ehtiyac yoxdur-uşaqlara müəllifin ümumi mühakimələrinin deyil, canlı duyğularının hopduğu konkret həyat mənzərələri təqdim etmək lazımdır"- deyə Dobrolyubov yazırdı.

Korney Çukovski, Nikolay Nekrasov yaradıcılığına xüsusi bir diqqət və doğmalıqla yanaşmışdır. Bu böyük rus şairinin uşaq ədəbiyyatı aləminə gözəl töhfələri mövcuddur. Nekrasov irsində özünəməxsus yer tutan "Baba" poemasını Korney babanın yaradıcılığı ümmanına qovuşan və zəngin tərbiyəvi əhəmiyyəti olan dünyəvi bir əsər kimi yada salmamaq mümkün deyil. Poema Dekabristlər üsyanının motivlərinə həsr olunub: (Əliağa Kürçaylının tərcüməsində. İxtisarla)

Bir gün atasının iş otağında

Saşa bir portret gördü nagəhan.

Bu bir generaldı gənclik çağında ,

Saşa atasından sordu: "Atacan,

Bu kimi şəklidir, bu kimdir belə?..."

-Bu sənin babandır, babandır, bala –

Söyləyib başını əydi kədərlə,

Üzünü çevirib getdi xəyala.

"Bəs niyə görünmür, hardadır babam?"

Atası bir cavab verməyir, susur.

Nəvə portretə baxır biaram.

Qurtarmır uşağın sözü, sorğusu:

"Niyə ah çəkirsən, di başa sal sən

De görüm ölübdür... ya sağdır baba?"

-Böyüyüb hər şeyi Saşa, bilərsən.

Korney İvanoviç Çukovski yazdığı şeirlər, hekayələr və nağıllarda azyaşlıların qəlbini zəngin duyğularla aşılamağı ustalıqla bacarmış və bu əsərlər nəşr olunub yayımlandıqca dillər əzbərinə çevrilmişdir. Bu baxımdan onun 1967-ci ildə yazdığı "Gümüş gerb" povesti də səciyyəvi xarakter daşıyır. 85 yaşlı qocaman bir yazıçının qələmindən süzülmüş bu əsər qürub edən bir ömrün sonunda boylanaraq geriyə-baxışları uzaq uşaqlıq illərinə zillənən bir insanın ürəyinin çırpıntılarıdır. Həyatının sonlarında çalınan təntənəli həyat simfoniyası kimi səslənən bu əsər görkəmli yazıçının ruhunda uzun illər boyu daşınmış, cilalanmış, bir qədər də kövrək notlarla zənginləşmiş ülvi hisslərdən yaranmışdır. Əsərdə ana-övlad münasibəti, dostluq, etibar, sədaqət, səmimiyyət, xəyanət və digər bu kimi həyat gerçəkliklərinə uşaq gözü ilə baxan yazıçı, gənc oxuculara həyatın hər üzünü qələmi ilə diqtə etməklə, sanki onları gələcəyə hazırlamışdır.



Yazıçının həyatının son ili olan 1969-cu ildə o, uşaqlar üçün yeni məzəli şeir-tapmacalar yazmağa davam etdi. Həmin ildə yazıçı "Köhnə nağılçının etirafları" silsilə məqalələrində uşaq nağıllarının yaranma tarixindən söz açıb.

Korney Çukovski Azərbaycanda da ən çox oxunan və nəşr olunan yazıçılardan biridir. Onun dilimizə tərcümə olunmuş ilk kitabı Azərbaycanda 1935-ci ildə çap edilmişdir. Çukovski irsinin Azərbaycan oxucuları arasında geniş yayılmasında T.Elçinin və M.Seydzadənin böyük əməyi olmuşdur. Yazıçının daha sonra ardıcıl olaraq Bakıda "Pinti olma", "Telefon", "Oğurlanmış günəş", "Qəmərin dərdi", "Dolaşıq", "Doktor Aybolit", "Qorxunc tarakan", "Moydadır", "Fedoranın dərdi", "Milçək- vizilcək", "Aybolit" (poemadır) adlı kitabları çap olunmuşdur.

Tanınmış rus sovet yazıçısı Korney Çukovskinin atası Emanuil Levenson Bakıda yaşamış və işləmişdir. Yalnız bu son zamanlar bəlli olub ki, Korney İvanoviçin atası sadəcə Bakıda yaşamış və işləmiş deyil, həm də bizim şəhərdə, Qurd Qapısındakı yəhudi qəbristanlığında dəfn olunmuşdur. Biz qəbristanlığın içərisi ilə dərinlərə getdikcə məzarların tarixçəsi daha irəliki zamanlara gedib çıxır, yazıların oxunaqlığı isə azalır. Zamanın sərt üzünə dözmüş olan yazılar bizi çəkib keçmişlərə aparır. Məzarlığın lap içərilərində, biçilmiş otların az qala dairə əmələ gətirdiyi yeri hər tərəfdən əhatə edən məzarlar dumanlı-çiskinli havanın fonunda xüsusilə sirli və mübhəm görünür. Bakı yəhudiləri tarixinin bilicilərindən olan Moşe Zilberşteynin (hazırda İsraildə yaşayır) sözlərinə görə, Emanuil Levenson) Bakıya hardasa 1890-cı ildə gəlib.

Rus uşaq ədəbiyyatında çörək və çörəyə ehtiram hissi çoxsaylı şeir, poema, nağıl və hekayələrdə dönə-dönə tərənnüm olunmuş və olunmaqda davam etməkdədir. Hələ uşaq

yaşlarından bərəkətin qədrini bilməyi, onu sevməyi aşılamaq tərbiyənin ilkin şərtlərindəndir. Bu cür əsərlərdən xeyli nümunə göstərmək olar, lakin M.Belaxovanın "Çörək süfrəyə necə gəldi?" kitabında balaca oxuculara bu əziz nemətin süfrəyə gələnədək hansı zəhmət yollarını keçdiyi o qədər maraqlı təsvir olunub ki, bunu təkrar-təkrar oxumaq istəyirsən. Çörəyə çatmaq, bol məhsul yetişdirmək, torpağın bütün tələb olunan qaydalarına əməl etmək özü bir məktəbdir. Bu məktəbin ən ləyaqətli məzunları isə torpağa bağlı olan əməksevər, zəhmətkeş insanlardır. M.Belaxovanın yazdığı kimi: "Biz hər gün çörək yeyirik. Çörəksiz hətta süfrəyə oturmuruq. Çörəksiz yeməyin nə ləzzəti? Çörək yeməsən, doymazsan, çörəksiz heç nəyin dadı olmaz!

Dahilər necə də gözəl deyib: "Əvvəl çörək, sonra əxlaq", "Torpaq çörəyi ilə, insan əməyi ilə", "İşləmək çörək, tənbəllik qıtlıq gətirər". Bunlar böyük həqiqətdir. İnsanın əsas qidası çörəkdir, bu qidanı heç bir şey əvəz edə bilmir. Çörək, həyat deməkdir, çörək təbiətin müqəddəs nemətidir. Bu müqəddəs nemətə ehtiram dünya xalqlarının həm folklorunda, həm də ədəbiyyatında hərarətlə əksini tapmışdır.

Köhnə zamanların əlifba kitablarında belə bir şəkil vardır: əkinçi əlində səbət zəmi ilə gedir. Onun ayağında çarıq, başında papaq, əynində beli iplə bağlanmış ağ köynək vardır. Şəklin altında bu sözlər yazılmışdır: "Əkinçi toxum səpməyə çıxmışdır".

Nə xoşbəxtsən, ey əziz Vətən torpağı!

Gülər çölün, çəmənin hər bahar çağı.

Kəndli çıxar tarlaya, günəş nur saçar,

Kotan yerə işləyib şırımlar açar.

Çevirdikcə torpağı əkinçi lay-lay,

Elə bilər dalınca budur, gəlir yay.

Kəndli silər alnının isti tərini,

Xəyalına gətirər yay günlərini:

Hüseynəli Əliyev M.Lomonosovun anadan olmasının 200 illiyi münasibətilə yazdığı "Balıqçılıqdan professorluğa" adlı məqaləsinə mənalı və cəlbedici sərlövhə verməsi tərbiyəvi məqsəd daşıyırdı. Bununla o, böyük alimin keçdiyi şərəfli həyat yoluna ilk sətirdən oxucuda maraq oyatmaq istəmişdi. Müəllif M.Lomonosovun hələ uşaqlıqdan müstəqil olaraq "Sərf-nəhv" və "Elmi-hesab" kitablarını mütaliə etməsi, Moskvada, Peterburqda, Kiyevdə, Almaniyada oxuması haqqında məlumat verir, uşaqların nəzərinə çatdırırdı ki, zəhmətsiz, əziyyətsiz, əmək sərf etmədən elmə sahib olmaq mümkün deyildir.

Heydər Əliyev uşaqlarla bağlı çıxışlarının birində, maraqlı bir mövzuya toxunarq qeyd edirdi ki, "Bu mövzuda maarifləndirici, istiqamətverici yazılara hər zaman ehtiyac olub. Lakin təəssüflə etiraf etməliyik ki, bəzən valideynlər övladlarının tərbiyəsində qüsurlara, özü də ciddi qüsurlara yol verir, uşaqlarını kiçik yaşlarından pula aludəçilik xüsusiyyətinə meylləndirməklə böyük səhvə yol vermiş olurlar".

Görkəmli yazıçı və pedaqoq Anton Semyonoviç Makarenko "Valideynlər üçün kitab"ında pedaqoqluqla bərabər, böyük həyat təcrübəsi olan ziyalı tövsiyyəsi ilə çox məsələlərə aydınlıq gətirirdi. "Pul! Bəşəriyyətin bütün ixtiralarından daha çox iblisə yaxın olmuşdur. Alçaqlıq və yalançılıq göstərmək üçün başqa heç bir şeydə bu qədər geniş meydan olmamışdır, buna görə də başqa heç bir sahədə riyakarlığın inkişafı üçün belə əlverişli zəmin olmamışdır... Makarenkonun "Valideynlər üçün kitab"ı olduqca maraqlıdır və burada qoyulan məsələlər, tövsiyələr, fikirlər zamanın hər bir dövrü üçün aktualdır

Tanınmış azərbaycanlı alim, filosof, tarixçi, hüquqşünas və dövlət xadimi Nəsirəddin Tusi tərbiyə haqqında fikirlərini belə izzah edirdi. "Uşaqların tərbiyəsini südəmər vaxtından vermək və bu işlə ciddi məşğul olmaq lazımdır, elə hərəkət etmək lazımdır ki, uşaq dil açıb danışarkən bir kəlmə də olsun bəd, pis, nəlayiq söz eşitməsin və pis hərəkətlər görməsin. Ona görə ki, uşaqların təbiətində pis, yaramaz söz və əməllərə meyl çox güclü olur".

Uşaqların tərbiyəsi və mənəviyyatında yaranan fəsadlardan Azərbaycan yazıçılarının və ailmlərinin əsərlərində də uşaq tərbiyyəsinin vacib xarekterlərindən söhbət açılır. Və bu cəmiyyətin, xüsusilə yeni nəslin tərbiyəsində, əxlaqının, dünyagörüşünün formalaşmasında ədəbiyyatın gücünün böyük olduğu bir daha əksini tapır.

## ƏDƏBİYYAT

1.B. S. Jidkov tərt.-red. C. Q. Nağıyev, S. Mustafayev, tərc.:S. Zeynalova Bakı: Öndər nəşriyyat,

2005.- 392 s.

2.Dünya ədəbiyyatı. Antologiyası. İki cilddə.-Bakı:Avrasiya Press,2010.-C.1.-s.163-196

3.Azərbaycan uşaq ədəbiyyatı antologiyası: 3 cilddə tərt. Q. M. Namazov; red. T. Ə.

Əhmədov I cild: XX əsrə qədərki uşaq şeiri.- Bakı: Öndər nəşriyyat, 2005.- 248 s.

4.Seçilmiş əsərlər. - Bakı : Şərq-Qərb, 2007. - 152 s. - (Dünya Ədəbiyyatı).

5.Çəpiş: Rus xalq nağılı-Bakı: Altun Kitab, 2013.-10 s.: rəngli şək.-(Mənim ilk kitabım:4-7 yaş).

6.Gəzinti;Nərə balığı haqqında;Büllur vaza və b. şeirlər.Dünya ədəbiyyatı.Antologiyası.İki

cilddə. – Bakı : Avrasiya Press, 2010. – C.1. – S.163-196.

7.İki gonbul: nağıl.-Bakı:Altun Kitab, 2009.-11 s. : rəngli şək.- (Mənim ilk kitabım : 6-7 yaş).



## RUS ÇOCUK EDEBİYATI

Vissarion Grigorievich Belinsky'nin parlak bir edebiyat eleştirmeni olarak gelişiminin sırrı, halka olan bağlılığı ve halkla birlikte nefes almasıydı. Yaşadığı ve yarattığı dönemde, Rusya'da çeşitli okullardan mezun olmuş ve bilimlerde ustalaşmış birçok bilim insanı ve profesör vardı. Belinsky, lise ve yüksek öğrenimini yeni bitirmiş, çok kısıtlı maddi kaynaklara sahip ve sadece 37 yıl yaşamış genç bir gazeteciydi. Ancak Rusya'da modern estetik teori ve bilimsel eleştiri yaratma onuru, gücünü halktan aldığı ve onlara güvendiği için zayıf bir gazeteciye düştü.

Belinsky, sanatta halk kavramının nesnel koşullarını-halk yaşamının doğru bir şekilde yansıtılması, temel koşul olarak gerçekçilik ve aynı zamanda yaratıcı süreçteki öznel an, yani sanatçının kendisinin ait olduğu halka ne ölçüde manevi ve yürekten bağlı olduğunu - göz önünde bulundurdu. "Bir yazar, doğası gereği manevi olarak halka bağlıysa, böyle bir yazar için halk insanı olmaktan daha kolay bir iş yoktur; ancak tam tersine, halktan uzaksanız, kendinizi ne kadar zorlarsanız zorlayın, halk insanı olamazsınız... Kendinizi halk insanı olmaya zorlamak, halk insanı olma yeteneğinden mahrum kalmanın ilk işaretidir. Yaratıcılıkta halk insanı olmak başlı başına bir yetenektir."

Eleştirmen, bu yeteneklere örnek olarak Krilov, Puşkin, Gogol ve Lermontov'u gösterdi. Vatanseverlik ve milliyetçiliği tutkuyla savunan Belinsky, gerçek vatanseverlik ve milliyetçiliğin hümanizmden ayrı olmadığını ve olmaması gerektiğini, hiç şüphesiz, "her bilinçli vatandaşın kalbinde, vatanın kaderine dair kaygı derin kökler salar, her asil kişi vatanla

olan kan bağını derinden anlar ve kavrar... Yaşayan bir insan, ait olduğu toplumun hayatını ruhunda, yüreğinde, kanında yaşar; toplumun dertleriyle dertlenir, acı çeker, acı çeker; toplumun sağlığı ve refahıyla sevinir, coşar, toplumun mutluluğundan hoşnutluk duyar ve ayrıca, kendi kişisel durumu ne olursa olsun, toplumun mutluluğundan sevinç duyar... Bir vatandaş bir insanı, bir insan da bir vatandaşı yok etmemelidir, aksi takdirde tek taraflılık ortaya çıkar ve tek taraflılık, sınırlamanın doğal kız kardeşidir. Vatanını sevmek, evrensel insanlık idealinin gerçekleşmesini coşkuyla istemek ve Bu insan idealini kendi gücü dahilinde en kısa sürede gerçekleştirmeye çabalamak. Aksi takdirde, sınırlı bir bağnazlık ortaya çıkar; kendinin olanı seven, çünkü kendisine ait olan, diğerinin olanı görmezden gelen, çünkü kendisine ait olan, kendi çirkinliğini ve aidiyetini çok seven bir bağnazlık...

***ABSTRACT***

The secret of Vissarion Grigorievich Belinsky's growth as a brilliant literary critic was his attachment to the people, his breathing with the people. During the time he lived and created, there were many scientists and professors in Russia who had graduated from several schools and mastered the sciences.

Belinsky was a young journalist who had only finished a gymnasium and a higher education, and who had very limited financial resources, and who lived only 37 years. However, the honor of creating modern aesthetic theory and scientific criticism in Russia fell to a poor journalist, because he drew his strength from the people and relied on them. Belinsky considered the objective conditions of the concept of peoplehood in art - the correct reflection of people's life, realism as the main condition, as well as the subjective moment in the creative process, in other words, the extent to which the artist himself was spiritually and heartily attached to the people to whom he belonged. “If a writer is spiritually, by nature, connected to the people, there is no easier task for such a writer than to be a people’s person, but on the contrary, if you are far from the people, no matter how much you strain yourself, you will not be able to be a people’s person… forcing yourself to be a people’s person is the first sign of being deprived of the ability to be a people’s person. Being a people’s person in creativity is itself a kind of talent.”

The critic cited Krylov, Pushkin, Gogol, and Lermontov as examples of such talents. Belinsky, who passionately promoted patriotism and nationalism, repeatedly said that true patriotism and nationalism are not and should not be separate from humanism, without a doubt, "in the heart of every conscious citizen, concern for the fate of the homeland takes deep roots, every noble person deeply understands and realizes his blood kinship with the homeland... A living person lives the life of the society to which he belongs in his soul, in his heart, in his blood; He is troubled by the troubles of society, suffers from its sufferings, suffers; rejoices, is delighted by the health and well-being of society, feels contentment with the happiness of society, and also, regardless of his own personal situation, rejoices in the happiness of society... A citizen must not destroy a person, and a person must not destroy a citizen, otherwise one-sidedness will arise, and one-sidedness is the natural sister of limitation. To love one's homeland, then it means ardently wishing to see the realization of the ideal of universal humanity and striving to realize this human ideal as soon as possible within one's power. Otherwise, a limited bigotry will arise, a bigotry that loves its own because it is its own, is blind to the other's because it is theirs, and loves its own ugliness and belonging very much because it is its own...

# YAZI BACARIĞINI İNKİŞAF ETDİRMƏYİN YOLLARI

**Kamalə Əzizli, baş laborant**

**Bakı, ADPU[https://orcid.org/0009-0000-2420-2684](https://orcid.org/0009-0000-2420-2684)**

Yazmaq bir mövzu haqqında müxtəlif yazı janrlarından istifadə edərək öz fikrini ifadə etmək deməkdir. Yazı yazmaq həm ifadə bacarığını, həm də düşüncəni əhatə edən bir fəaliyyətdir və tədris müəssisələrində öyrədilməsi vacib olan dörd bacarıqdan biridir. Yazılı nitq fəaliyyəti insanların düşüncələrini yazılı formada göstərməyə kömək edir. Yazı bacarığının əhəmiyyətini vurğulamaq lazımdır. Çünki yazı özünüifadə bacarığıdır. Buna görə də ən mühüm ictimai alət sayılır. Biz kifayət qədər yaxşı yazı səriştələri əldə edərək mesajımızı istənilən auditoriyaya asanlıqla çatdırmaq imkanına sahib oluruq. Danışma kimi yazının da məqsədi hisslərimizi, düşüncələrimizi və lazımi məlumatları başqalarına çatdırmaqdır. Biz danışıq bacarığı ilə müqayisədə yazı bacarığının istifadəsi zamanı ədəbi dilin normalarına daha çox diqqət edirik.

Dil tədrisində dörd bacarıq da bir-birləri ilə əlaqəlidir. Müəllimlər bu əlaqələrdən istifadə edərək tədris prosesini uğurla təşkil etməyə çalışırlar. Məsələn, müəllimlər yazı bacarığını tədris edərkən yalnızca bir bacarığa fokuslanmırlar. Onlar digər bacarıqlarla yazını əlaqələndirmək üçün müxtəlif strategiyalar və texnikaları tədris prosesinə daxil edərək dərslərdə tətbiq edirlər. Bu üsullar tələbələrin bütün bacarıqlarının inkişafına dəstək olaraq səmərəli tədrisin təşkilinə öz töhfəsini verir.

Müəllimlər tədris prosesində müxtəlif metodların köməyi ilə tələbələrin yazı bacarıqlarını inkişaf etdirə bilərlər. Metod istər xarici dilin tədrisi, istərsə də hər hansı bir fənnin mənimsənilməsi zamanı tələbələrin daha effektiv və səmərəli nəticələr əldə etməsinə kömək edən bir vasitədir. Xarici dilin tədrisi zamanı tələbələrin və şagirdlərin dili düzgün şəkildə öyrənməsi üçün çoxlu metodlar kəşf edilmişdir. Çünki xarici dil öyrənənlər bir-birlərindən öyrənmə bacarıqlarına, motivasiyalarına, maraq dairələrinə, yaşlarına, dil ehtiyaclarına və başqa səbəblərə görə fərqlənirlər. Buna görə də müəllimlər metod seçərkən xarici dili tədris etdiyi tələbələrin bütün bu xüsusiyyətlərini nəzərə alaraq seçməlidirlər.

Bəşəriyyət tarixinin hər pilləsində yazının böyük rolu olmuşdur. Buna görə də mədəniyyətin, texnikanın və elmin digər sahələrinin inkişaf etməsində yazı bacarığı əhəmiyyətlidir. Yazı bacarıqlarına sahib olmaq mədəniyyətlər arası münasibətlərin inkişaf etməsi üçün millətlər və ölkələr arasında körpü rolunu oynayır. Eyni zamanda əksər karyera sahələrində müvəffəqiyyətli olmaq üçün yazı çox vacib bir bacarıqdır.

Hal-hazırda insanların yazı səriştəsinə olan tələbatı çox yüksəkdir. Yazı və yazılı nitq olmadan hər hansı bir dilin mənimsənilməsini təsəvvür etmək mümkün deyil.

**Açar sözlər**: yazı, dil, tədris, metod, nitq fəaliyyəti, bacarıq.

# REGULARITIES OF THE ART OF POETRY
# ŞEIR SƏNƏTININ QANUNA UYĞUNLUQLARI

**Dos. Dr. Ulduz Fərhad Qəhrəmanova, filologiya üzrə fəlsəfə doktoru,**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, "Ədəbiyyat" kafedrasında dosent əvəzi**

**Orcid İD: 0009-0003-4418-9319**

**Abstrakt:**

Ədəbiyyatşünas kitablarında nəzm sözü ilə nəsr sözü çox zaman qoşa işlədilir. Nəzm və nəsr ərəb mənşəli sözdür. Nəzm sözünün lüğəvi mənası "nizam" deməkdirsə, nəsr "nisar" sözündən olub mənası dağılmaq, səpələnmək, yayılmaqdır. Nəsrə çox zaman proza da deyirlər. Proza adi danışıq dilinə çox yaxındır. Nəsrdə dilin qrammatik qayda-qanunları tam mənada gözlənsə də, bu tipli əsərlərdə ahəngdarlıq, ritmiklik o qədər də vacib deyildi. Nəsr fikri daha sərbəst ifadə etmək üçün yazıçıya geniş imkanlar verir, onu qaafiyə tapmaq, ölçünü, təqtini gözləmək əziyyətindən xilas edir.

Azərbaycan yazılı ədəbiyyatı tarixində nəsrin tarixi nəzmə nisbətən çox cavandır. Qədim zamanlarda hətta bir çox tarix kitabları, digər məzmunlu əsərlər, risalələrdə nəzmlə yazılırdı. Nəsr adi danışıq, "çoban-çoluq" dili hesab edilirdi. (Rafiq Yusifoğlu, (2001), s.56) Bu gün də bədii təsir gücü, obrazlılığı yetərincə olmayan şeirlər "prozaik" əsərlər adlandırılır və bu cəhət lirik əsərin başlıca nöqsanı kimi qiymətləndirilir.

Nəsr dili sərbəst nağıl, təhkiyə dilidir. Nəzmdə isə vəziyyət daha mürəkkəbdir. Belə ki, nəzmdə xüsusi şərtlər tələb olunur. Bu şərtlər aşağıdakılardır:

- I sətrin quruluşu, texnikası, söz və ifadələrin tərkibi həcm etibarı ilə nə şəkildədirsə, sonrakı sətirlərin quruluşunda da bu forma xüsusiyyəti nəzərə alınmalıdır.
- Nəzmdə sətirlər müəyyən ritm ilə qurulur, bərabər söz və ifadə vahidlərinin mütənasib növbələşməsindən ibarət olur.

Açar sözlər: nəsr dili, nəzm dili, danışıq dili



Ulduz Farhad Kahramanova, Doctor of Philosophy in Philology,

Azerbaijan State Pedagogical University, Acting Associate Professor at the Department of "Literature"

**Abstract:**

In literary books, the words "nazm" and "prose" are often used together. Nazm and prose are words of Arabic origin. If the lexical meaning of the word "nazm" means "order", then prose comes from the word "nisar" and means to disperse, scatter, spread. Prose is often also called prose. Prose is very close to ordinary colloquial language. Although the grammatical rules of the language are fully observed in prose, harmony and rhythm were not so important in this type of works. Prose gives the writer ample opportunities to express his thoughts more freely, saves him from the trouble of finding rhyme, meter, and rhythm.

In the history of Azerbaijani written literature, the history of prose is much younger than that of verse. In ancient times, even many history books, works of other content, and treatises were written in verse. Prose was considered the language of ordinary conversation, the "shepherd-herd" language. (Rafig Yusifoglu, (2001), p.56) Even today, poems that lack sufficient artistic impact and imagery are called "prosaic" works, and this aspect is considered the main drawback of a lyrical work.

Prose is a free tale and narrative language. In verse, the situation is more complicated. Thus, special conditions are required in verse. These conditions are as follows:

• Whatever the structure, technique, and composition of words and expressions of the first line are in terms of volume, this feature of form should be taken into account in the structure of the subsequent lines.

• In poetry, lines are constructed with a certain rhythm, consisting of a proportional alternation of equal words and units of expression.

Keywords: prose, poetry, colloquial language

Ədəbiyyatşünas kitablarında nəzm sözü ilə nəsr sözü çox zaman qoşa işlədilir. Nəzm və nəsr ərəb mənşəli sözdür. Nəzm sözünün lüğəvi mənası "nizam" deməkdirsə, nəsr "nisar" sözündən olub mənası dağılmaq, səpələnmək, yayılmaqdır. Nəsrə çox zaman proza da deyirlər. Proza adi danışıq dilinə çox yaxındır. Nəsrdə dilin qrammatik qayda-qanunları tam mənada gözlənsə də, bu tipli əsərlərdə ahəngdarlıq, ritmiklik o qədər də vacib deyildi. Nəsr fikri daha sərbəst ifadə etmək üçün yazıçıya geniş imkanlar verir, onu qaafiyə tapmaq, ölçünü, təqtini gözləmək əziyyətindən xilas edir.

Azərbaycan yazılı ədəbiyyatı tarixində nəsrin tarixi nəzmə nisbətən çox cavandır. Qədim zamanlarda hətta bir çox tarix kitabları, digər məzmunlu əsərlər, risalələrdə nəzmlə yazılırdı. Nəsr adi danışıq, "çoban-çoluq" dili hesab edilirdi. (Rafiq Yusifoğlu, (2001), s.56) Bu gün də bədii təsir gücü, obrazlılığı yetərincə olmayan şeirlər "prozaik" əsərlər adlandırılır və bu cəhət lirik əsərin başlıca nöqsanı kimi qiymətləndirilir. 

"Qobusnamə" əsərinin "Şairlik qaydaları haqqında" adlanan 35-ci fəslində nəzmin qaydaları, şeirdə qafiyənin, vəznin, ahəngdarlığın vacibliyi göstərilir, onun nəsrdən qat-qat üstünlüyü qeyd olunurdu. "Nəsrdə olan sözləri şeirdə işlətmə! Nəsr rəiyyətdir, şeir (nəzm) şah". Rəiyyətə yaraşmayan şaha heç yaraşmaz". (Rafiq Yusifoğlu, (2001), s.57) Doğrudan da, dilin lüğət tərkibində olan bütün sözlərdən şeirdə istifadə etmək düzgün deyildir. Şeir incə, zərif, musiqili olduğundan, şair sözlərə ehtiyatla yanaşmalı, ağır səslənən, qeyri-ahəngdar sözləri şeirə gətirməməlidir.

Ədəbiyyatımızda əsrlər boyu nəzm nəsri üstələmişdi. Yazılı ədəbiyyatda ilkin nəsr nümunələri də şeiri xatırladırdı. Belə ki, bu tipli əsərlərdə də qafiyədən gen-bol istifadə olunurdu. Bu tipli əsərlər əslində nə nəzm kimi nəzm, nə də nəsr kimi nəsr idi. Elə buna görə də Mirzə Fətəli Axundov qafiyəli nəsrin əleyhinə çıxır və yazırdı ki, nəsrdə qafiyə kəlamı çiy edir və zəiflədir. Çünki şeir qafiyə xətrinə yazılanda bu zaman artıq sözlər işlənir və vacib olmayan mətləblər meydana çıxır. Nəsrdə sətirlərin həcmi və ya xüsusiyyəti haqqında müəyyən şərt qoyulmur. Yazı danışıq dilində olduğu kimi sərbəst verilir.

Nəsr dili sərbəst nağıl, təhkiyə dilidir. Nəzmdə isə vəziyyət daha mürəkkəbdir. Belə ki, nəzmdə xüsusi şərtlər tələb olunur. Bu şərtlər aşağıdakılardır:

• I sətrin quruluşu, texnikası, söz və ifadələrin tərkibi həcm etibarı ilə nə şəkildədirsə, sonrakı sətirlərin quruluşunda da bu forma xüsusiyyəti nəzərə alınmalıdır.

- Nəzmdə sətirlər müəyyən ritm ilə qurulur, bərabər söz və ifadə vahidlərinin mütənasib növbələşməsindən ibarət olur.

Klassik Şərq ədəbiyyatında, xüsusilə, ərəb, fars, Azərbaycan ədəbiyyatında qədim nümunələrin demək olar ki, bütünlüklə nəzmlə yazıldığını görürük. Yalnız bədii əsərlər deyil, hətta ümumən yazılan kitablar belə (tarix, hesab, lüğət və s. kitabları ) nəzm ilə qurulurdu. Hətta inqilaba qədərki ruhani məktəblərində də lüğət kitabları nəzm ilə tərtib olunurdu. Nəzm ilə yazılan yazıda qrammatik qaydalardan, yazının bütün məlum tələblərindən başqa bir də ritm texnikası, ifadənin quruluş xüsusiyyətləri gözlənilir. Bununla belə, nəzm ilə şeirin fərqini müəyyən etmək üçün yazının yalnız zahiri texnikasına yox, bədii keyfiyyətinə, məna və mahiyyətinə, obrazlı təfəkkür xüsusiyyətinə diqqət yetirmək lazımdır. Müəyyən texniki tələblərə cavab verən, sətirləri ölçü və qafiyə ilə təşkil olunan bütün yazılar nəzmdir.

Bu xüsusiyyətindən başqa bədii əhəmiyyəti olan, varlığa şairanə münasibət bəsləyən, obrazlı təfəkkür ilə yaradılan mənzum yazılara şeir deyilir. Şeirlərdə bədii lövhənin yaradılmasının şahidi oluruq.

**Ədəbiyyat:**

1.Xalid Əlimirzəyev, ( 2008) “Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları”, Bakı

2. Mir Cəlal, Pənah Xəlilov,( 2005) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı, Çaşıoğlu

3. Məmməd Əliyev, (2012) “Ədəbiyyat nəzəriyyəsinin əsasları”, Bakı

4. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı

5.Nizaməddin Şəmsizadə, (2012) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı

6. Rafiq Yusifoğlu, (2001) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı

# IN SILICO ANALYSIS OF MUSCAROSIDE A TARGETING CYP51 ENZYME OF TRICHOPHYTON RUBRUM: A POTENTIAL NATURAL AGENT FOR FOOT MYCOSIS MANAGEMENT

**Mehmet Veysi CETIZ[1]**

**[1]Harran University, Faculty of Medicine, Department of Medical Biochemistry, Sanlıurfa, Türkiye, Medical Disease –Drug Discovery and Bioinformatics,**

**0000-0002-2635-6553**

## Abstract

Maintaining optimal foot health is essential for preserving mobility and daily quality of life. The feet are vulnerable to various fungal infections, particularly tinea pedis, due to constant exposure to external conditions, including mechanical stress, moisture, poor hygiene, and temperature fluctuations. Trichophyton rubrum is the predominant dermatophyte that causes chronic and recurrent superficial mycoses. Current antifungal regimens often fail due to high resistance and suboptimal therapeutic efficacy, necessitating the identification of alternative agents with improved profiles.

In this study, Muscaroside A—a natural glycoside with potential antifungal properties—was evaluated for its interaction with *T. rubrum* sterol 14α-demethylase (CYP51), a key enzyme in ergosterol biosynthesis and a well-established antifungal target (Fig 1a). The protein structure (AlphaFoldDB ID: A0A178F3C9) and ligand structure (SpectraBase ID: LLI3vJgmOJe) were prepared and optimized using ChemDraw v23, BIOVIA Discovery Studio, AutoDockTools v4.2.6, and Avogadro v1.2.0. Molecular docking was performed via AutoDock Vina v1.1.2, with exhaustiveness set to 32. Binding site predictions were made using POCASA v1.1, and binding mode analysis was conducted with PLIP and PyMOL v2.5.8. The docking results showed that muscaroside A strongly binds to the active site of CYP51. It forms hydrogen bonds with ASN188, SER190, ARG211 (twice), SER216, GLN309, HIS310 (twice), SER313, and LYS509. Additionally, hydrophobic interactions were observed with PHE173, GLU195, TYR199, ALA219, and PHE507. Additionally, salt bridges involving HIS310 and LYS509 were noted, indicating strong electrostatic complementarity (Fig 2b). These results suggest that Muscaroside A could be used as a natural antifungal compound that targets CYP51 in dermatophyte-induced foot infections.





**Fig. 1.** a) 2D Structure of Muscaroside A; b) Predicted Interaction Profile of Muscaroside A with Trichophyton rubrum CYP51 Enzyme.

Acknowledgement. The authors acknowledge the financial support from The Scientific and Technical Research Council of Turkey (TUBITAK- 124C078).

**Keywords:** Muscaroside A, Trichophyton rubrum, CYP51, Foot mycoses, Molecular docking

20.08.2025

ISBN: 978-625-96774-4-6

ASES PUBLICATIONS – 2025©